9 789952 536423
http://bck.az/images/books/K-37-sultanov-q.pdf
https://doi.org/10.25045/k.nurubay.sultanov
https://orcid.org/0000-0001-6958-5412

Professor Həsən Sultanov

Örnək insan:

BCK
www.bck.az
BİRİNCİ CƏRRAHİYYƏ KOLLEKTİVİ

Bayramov N.Y.,
Rüstəm Ə.M.,
Əliyev E.A.



# Örnək insan:

# Professor Həsən Abbas oğlu Sultanov



Bayramov N.Y., Rüstəm Ə.M., Əliyev E.A.

# ÖRNƏK İNSAN:
# *Professor Həsən Abbas oğlu Sultanov*



Bayramov N.Y., Rüstəm Ə.M., Əliyev E.A.
**Örnək insan:**
**Professor Həsən Abbas oğlu Sultanov**
*Bakı. 2022. «Ave Print», -208 s.*

*Kitab əməkdar elm xadimi, əməkdar həkim, Tibb elmləri doktoru, Professor Həsən Abbas oğlu Sultanovun əziz xatirəsinə həsr olunmuşdur. O, H. A. Sultanovun həyatı və elmi yaradıcılığını, cərrahlıq elminin, klinik cərrahlığın, xüsusi ilə praktik cərrahi koloproktologiyanın inkişafına alimin böyük töhfələrini özündə əks etdirmişdir. Alim haqqında, onun həkimlik fəaliyyəti və elmi tədqiqatlarının nəticələri barədə həmkarlarının, tələbələrinin səmimi fikirləri, təəssüratları və xoş xatirələri geniş işıqlanmışdır. Tibb tariximizin çanlı və şanlı əfsanələrindən biri haqqında yazılmış bu kitab onun yaddaşlardan heç zaman silinməyəcək xatirəsinə həmkarlarının və tələbələrinin kiçik hədiyyəsidir.*

*ISBN: 978-9952-536-42-3*

*© Bayramov N.Y., Rüstəm Ə.M., Əliyev E.A. 2022*

# ÖN SÖZ

Elmin zirvəsi sənətdir, sənətin zirvəsi elmdir, insanlığın zirvəsi kamillikdir, zirvələrin fatehləri fədakar insanlardır, daşıyıcıları isə müəllimlərdir. Həmin fədakar insanlar enerjisini, rahatlığını, alın tərini, gözlərinin nurunu, bəzən sağlamlığını belə müqəddəs amalları uğurunda əsirgəmirlər. Gəncliyində öyrənir, cavanlığında yaradır, yaşlananda öyrədir, ahıl çağlarında müdrikləşirlər. Lakin çox az insan uca zirvələrə qalxır və insanlıq tarixində böyük iz qoyurlar. XX əsr Azərbaycan Cərrahlıq məktəblərinin qurucuları sayılan M.M. Mirqasımov, M.A. Topçubaşov, B.M. Mahmudbəyov ... silsiləsinin layiqli davamçısı və daşıyıcısı kimi tanıdığımız, Tibb elmləri doktoru, Professor, Azərbaycan Respublikasının əməkdar elm xadimi, "Şöhrət" ordenli Həsən Abbas oğlu Sultanov elm, sənət və insanlığın uca zirvələrini fəth etmiş sevimli müəllimimizdir.

Ölkəmizdə elmi cərrahi koloproktologiyanın banisi və məktəbinin yaradıcısı, minlərlə tələbələrə dərs verən, minlərlə insana həyat və sağlamlıq bəxş edən, minlərlə insana «insanlıq nümunəsi» olan Həsən müəllimə həsr etdiyimiz bu kitabda onun həyat və yaradıcılığının önəmli məqamları, ölkəmizin tibb ictimaiyyətinin görkəmli nümayəndələrinin fikirləri, məsləkdaşları və tələbələrinin səmimi təəssüratları, xatirələri yer almışdır. Bu yazılanlar yazıla biləcəklərinin çox az qismini əhatə etsə də dəyərləri yüksəkdir, və ümidvarıq ki, oxucular tərəfindən, Həsən

müəllimi tanıyanlar, Həsən müəllimə rəğbət bəsləyənlər tərəfindən ehtiramla qarşılanacaqdır.

Kitabın yazılmasında, tərtibində iştirak edənlərə, Həsən müəllim haqqında fikirlərini, təəssüratların və xatirələrini bölüşən müəllimlərimizə, ustad həmkarlarımıza və dostlarımıza dərin minnətdarlığımızı bildiririk!

**Bayramov N.Y.**

***I-cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, Tibb elmləri doktoru, Professor***



# Sultanov Həsən Abbas oğlu

Azərbaycan Respublikasının əməkdar elm xadimi, Azərbaycan Tibb Universitetinin I-cərrahi xəstəliklər kafedrasının müdiri professor Həsən Abbas oğlu Sultanovun həyatı, elmi, pedaqoji və təcrübi fəaliyyəti gənc nəslin nümayəndələri üçün böyük örnəkdir.

Sultanov Həsən Abbas oğlu 1932-ci ilin may ayının 9-da Tərtər rayonunun Söylən kəndində anadan olmuşdur. 1939-1943-cü illərdə Söylən kənd ibtidai məktəbində təhsil almış, oranın 4-cü sinifini bitirmişdir. Oxumağa boyük həvəsi olduğuna görə təhsilini qonşu Evoğlu kəndində davam etdirmiş və 1947-ci ildə 8-ci sinifi əla qiymətlərlə başa vurmuşdur. 1949-cu ildə Tərtər şəhər orta məktəbini müvəffəqiyyətlə bitirmişdir.

Orta məktəbdə biliklərə həvəslə yiyələnməsi, həkimlik sənətinə böyük marağı onu Azərbaycan Tibb Universitetinə (o zaman Azərbaycan Dövlət Tibb İnstitutu adlanırdı) gətirmişdir. 1949-cu ildə orta məktəbin məzunu Həsən həmin Universitetin müalicə-profilaktika fakültəsinə daxil olur. Əla təhsil göstəricilərinə və nümunəvi davranışına görə IV kursu bitirdikdən sonra Rusiya Federasiyasının Samara (keçmiş Kuybışev) Dövlət Tibb İnstitunun hərbi tibb fakültəsinə köçürülür. 1955-ci ildə həmin fakültəni müvəffəqiyyətlə bitirərək hərbi həkim ixtisasına yiyələnir. 1955-1957-ci illərdə Murmansk vilayətində hərbi hospitalda hərbi həkim kimi fəaliyyət

göstərir. 1957-ci ildə ordu sıralarından tərxis olunaraq Vətənə qayıdır. Həmin il Tərtər rayonunun Evoğlu kənd xəstəxanasının baş həkimi vəzifəsinə təyin edilir. Bu vəzifədə onun yüksək təşkilatçılıq və rəhbərlik bacarıqları üzə çıxır. H.A. Sultanov kənddə səhiyyə işini yenidən qurur və kənd əhalisinə yüksək səviyyəli tibb yardımı göstərilməsini təmin edir. Qısa müddətdə nəinki kənddə, bütün bölgədə gözəl həkim kimi tanınır.

H. A. Sultanov 1960-cı ildə Azərbaycan Tibb Universitetinin I-hospital cərrahiyyə kafedrasında klinik ordinaturaya daxil olmuşdir. O, kafedrada – Azərbaycan milli elmi cərrahlığının beşiyində Professor B.M. Mahmudbəyovun rəhbərliyi altında cərrahlıq sənətinin sirlərinə mükəmməl yiyələnmiş, cərrahlıq elminə böyük maraq göstərmiş və ilk uğurlu addımlarını atmışdır. Təşəbbüskarlıq və novatorluq xüsusiyyətlərinin daşıyıcısı kimi, yüksək təşkilatçılaq və rəhbərlik qabiliyyətlərinə görə 1963-cü ildə Bərdə rayon Birləşmiş Mərkəzi xəstəxanasının cərrahlıq şöbəsinə müdir təyin edilmişdir. Rayon şəraitində bir çox ağır, mürəkkəb cərrahi əməliyyatları uğurla yerinə yetirən H.A. Sultanov qısa müddətdə şöbənin və xəstəxananın praktik fəaliyyət səviyyəsinin yüksəlməsinə nail olur.

Cərrahlıq peşəsi ilə yanaşı böyük təşkilatçılıq, quruculuq, yaradıcılıq qabiliyyətləri hesabına o, qısa zaman kəsiyində baş həkimin müalicə işləri üzrə müavini, az sonra həmin xəstəxananın baş həkimi vəzifəsinə təyin olunur. Bu vəzifələri bacarıqla yerinə yetirən H.A. Sultanov daim öz üzərində işləyir, elmi axtarışlar və araşdırmalar aparır. 1969-cu ildə “Kənd əhalisi arasında obliterasiyaedici endoarteriitin profilaktikası və müalicəsi” mövzusunda tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün müvəffəqiyyətlə dissertasiya müdafiə edir.



Kənd əhalisi arasında obliterasiyaedici endoarteritin yayılması səviyyəsinin, xəstəliyin gizli formalarının aşkar edilməsi, erkən diaqnostikası üçün müxtəlif peşə sahibləri üzərində çoxsaylı müayinələr aparmış, kənd əhalisi arasında xəstəliyin profilaktikası və müalicəsi tədbirlərini işləyib hazırlamışdır.

Rayonda işlədiyi müddətdə demək olar ki, cərrahlığın bütün sahələri üzrə yüzlərlə ağır cərrahi əməliyyatlar yerinə yetirmiş, ali dərəcəli cərrah səviyyəsinə qədər yüksəlmişdir. Cərrahi əməliyyat olunmaq üçün onun yanına yalnız Bərdə rayonundan deyil, qonşu rayonlardan, respublikanın digər bölgələrindən xəstələr gəlir, ona pənah gətirirdilər. İstər həkimlik peşəsinə görə, istərsə də Bərdə rayon səhiyyə sistemində apardığı yenilikçi işlərinə görə H. Sultanov dəfələrlə mükafatlandırılmış, adı həmişə qabaqcıllar sırasında çəkilmişdir.

1972-ci ildə H.A. Sultanov Azərbaycan Tibb Universitetinin I-hospital cərrahiyyəsi kafedrasına assistent vəzifəsinə seçildiyinə görə Bərdə rayon Mərkəzi xəstəxanasının baş həkimi vəzifəsindən azad olunur. O vaxtdan etibarən bu günə qədər H.A. Sultanov I-cərrahi xəstəliklər kafedrasında müxtəlif vəzifələrdə işləmişdir. 1986-cı ildə H.A. Sultanov Perm Dövlət Tibb institutunda "Kənd əhalisi arasında kəskin paraproktitin profilaktikası və onun cərrahi müalicəsi" mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və tibb elmləri doktoru alimlik dərəcəsi almışdır.

1972-1980-ci illərdə kafedranın assistenti, 1980-1987-ci illərdə dosenti, 1987-1990-cı illərdə isə professoru kimi uğurlu fəaliyyət göstərmişdir. 1990-2012-ci illərdə I-cərrahi xəstəliklər kafedrasının müdiri vəzifəsində işləmişdir. Bu illərdə prof. Sultanovun praktik cərrahlıqla

yanaşı elmi-pedaqoji fəaliyyəti məhsuldar, çoxşaxəli və çoxistiqamətli olmuşdur.

Prof. H.A. Sultanovun elmi-pedaqoji fəaliyyətini 2 dövrə bölmək olar. Birinci dövr 1972-1987-ci illəri əhatə edir. İkinci dövr isə 1987-ci ildən bu günə qədər olan dövrdür. Əgər I dövrə nəzər salsaq onun yaradıcılığında baş vermiş aşağıdakı əsas hadisələrin şahidi olarıq:

- 1976-cı ildə "Düz bağırsağın xəstəlikləri və onların profilaktikası" adlı vəsaiti dərc olunmuşdur;
- 1978-ci ildə kənd əhalisi arasında proktoloji xəstəliklərin yayılmasını öyrənmək üçün profilaktik baxışlar aparmış və onların nəticələri "Azərbaycan Tibb jurnalı"nda məqalə şəkilində çap olunmuşdur;
- 1979-cu ildə subordinatorlar və praktik cərrahlar üçün "Düz bağırsağın cərrahi xəstəlikləri" mövzusunda tədris vəsaiti çapdan çıxmışdır;
- "Qəbizlik və onun müalicəsi" mövzusunda praktik tövsiyələr işləyib hazırlamış və nəşr etdirmişdir;
- Proktoloji xəstəliklərin yayılması, rastgəlmə tezliyi, belə xəstələrin hospitalizasiyası, müalicəsi, müalicənin yaxın və uzaq nəticələrini, ağırlaşmaların rastgəlmə tezliyini, onların profilaktikasının aktual məsələlərini öyrənmiş, alınmış elmi məlumatlar müxtəlif jurnallarda və elmi konfransların materiallarında çap olunmuşdur;
- Kəskin paraproktitin etiologiyası və patogenezinə, klinika, diaqnostika və müalicəsinə həsr edilmiş doktorluq dissertasiyası üzərində işləməyə başlamışdır;
- "Rektal güzgü" və "Kəskin paraproktitin təsnifatı və müalicə üsulları" mövzularında səmərələşdirici təkliflərə görə vəsiqələr almışdır;
- "Büzdümün irinləmiş epitelial yollarının müali-

cəsində idarə olunan tikişlər" adlı səmərələşdirici təklif irəli sürmüş və vəsiqə almışdır;

- Moskva, Batumi, Ufa, Donetsk, Perm şəhərlərində elmi-praktik konfranslarda məruzələrlə çıxış etmişdir;

Bu dövrdə 40-a qədər elmi məqaləsi müxtəlif elmi-periodik jurnallarda çap olunmuşdur;

- 1986-cı ildə Perm şəhərində "Kənd əhalisi arasında kəskin paraproktitin profilaktikası və cərrahi müalicəsi" mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir.

I dövrdə elmi yaradıcılğın əsas aparıcı xəttini ümumi proktologiya təşkil etmişdir. Hemorroy, anal çat, kəskin və xroniki paraproktit, düz bağırsağın düşməsi, büzdümün epitelial yolu və digər xəstəliklərin cərrahi müalicəsi problemləri onun daim diqqət mərkəzində olmuşdur. Bu qrup xəstələrin cərrahi müalicəsi və tibbi reabilitasiya məsələləri tədqiq edilmiş, nəticələr müqayisəli öyrənilmişdir. Çoxlu sayda cərrahi əməliyyatlar aparılmış və hər nozoloji vahid üçün adekvat müalicə metodu və taktikası işlənilib hazırlanmışdır. Ölkəmizdə ilk dəfə olaraq cərrahi proktoloji xəstəliklərin müalicəsində epidural (sakral) anesteziya üsulunun istifadəsinə başlanılmışdır. Sonrakı illərdə bu anesteziya növü daim təkmilləşdirilmiş, ayrılıqda və ya müştərək şəkildə geniş istifadə olunmuşdur. Bir sözlə, H.A. Sultanov proktoloji xəstələrin müalicəsi ilə gərgin məşğul olmuş, elmi-tədqiqat işləri aparmış, respublikamızda bu sahədə tanınmış mütəxəssis olmuşdur. Bu dövr həmçinin onun yerinə yetirdiyi çoxsaylı cərrahiyyə əməliyyatları və onların müsbət nəticələrinin tibb mütəxəssislərinin, əhalinin diqqətini cəlb etməsi ilə xarakterizə olunur.

H. A. Sultanov 1987-ci ildə kafedranın professoru vəzifəsinə seçilir və həmin ildən onun yaradıcılığının 2-ci, daha məhsuldar dövrü başlayır. Elmi fəaliyyətinin çoxcəhətli olduğu bu mərhələ onun elmi axtarışlarının nəticələrini yekunlaşdıran məqalələrin, monoqrafiyaların, dərsliklərin, ixtira və səmərələşdirici təkliflərin ortaya çıxması ilə xarakterizə olunur:

- 1988-ci ildə "Xora mənşəli mədə-bağırsaq qanaxmaları zamanı cərrahi taktika" mövzusunda praktik tövsiyələr çap olunur;
- Həmin il "Вестник хирургии им. И.И. Грекова" jurnalında "Təxirəsalınmaz proktologiyada əməliyyatdan sonrakı ağrısızlaşdırma metodunun seçilməsi" elmi məqaləsi dərc edilir;
- 1989-cu ildə "Hemorroy və onun profilaktikası" mövzusu üzrə metodik tövsiyələr işlənilir. "Elm və həyat" jurnalında hemorroy xəstəliyi haqqında elmi-populyar məqalə işıq üzü görür.
- Kiyev Tibb institutunun elmi əsərlər toplusunda "Kəskin paraproktitin təsnifatı və müalicəsi" elmi əsəri, Zaqafqaziya cərrahlarının XII qurultayının materiallarında "Döş qəfəsinin boşluğa nüfuz edən yaralanmaları zamanı irinli ağırlaşmalar" məqaləsi çap olunur. Elə həmin il Zaqafqaziya morfoloqlarının konfransında "Anatomiya və düz bağırsağın bir sıra xəstəlikləri" haqqında məruzə edir. Azərbaycan Tibb Universitetinin elmi konfransında "Qeyri-spesifik xoralı koliti olan xəstələrdə kolonoskop vasitəslə antibiotiklərin tətbiqinin məqsədəuyğunluğu" mövzusunda məruzə ilə çıxış edir.

Professor H. A. Sultanov irihəcmli boşluqdaxili əməliyyatların aparılmasına üstünlük verir. 1990-cı ildə Azər-

baycan Respublikası Milli Elmlər Akademiyasının bülletenində"Obturasion bağırsaq keçməməzliyi ilə ağırlaşmış çənbər bağırsaq xərçənginin müalicəsində bizim təcrübəmiz" və "Yoğun bağırsağın sol yarısının xərçəngində cərrahi müalicəyə dair" adlı böyükhəcmli elmi əsərləri dərc olunur. Bu işlərdə yoğun bağırsağın xərçəngi ilə xəstələrin cərrahi müalicəsinin nəticələri analiz edilir. Digər bir elmi işi - "Yoğun bağırsağın divertikulyozu" məqaləsi proktoloqların ümumittifaq konfransının materiallarında (Samara şəhəri) çap olunur. Başqa bir maraqlı elmi məqalə - "Mədə rezeksiyasından sonra ileosekal qapağın funksiyasının pozulması""Вестник рентгенологии" jurnalında (Moskva şəhəri) işıq üzü görür.

Həmin il müəllifin daha 2 məqaləsi ("Ekstrasfinkter pararektal fistulların müaliçəsi" və "Düz bağırsağın transsfinkter fistullarının müalicəsi") "Azərbaycan Tibb jurnalı"nda çapdan çıxır.

İstər elmi və istərsə də praktik təcrübə sahəsində H. A. Sultanovun işgüzarlığı, yorulmaq bilmədən çalışması öz bəhrəsini verir. 1991-ci ildə onun "Kəskin xolesistitin kompleks müalicəsində endovaskulyar lazer şüalanmasının tətbiqi" mövzusunda elmi işi Rostov-Don şəhərində SSRİ Tibb Elmlər Akademiyasının təxirəsalınmaz cərrahlıq üzrə plenumunun,"Yoğun bağırsağın polipozunun rentgendiaqnostikası" məqaləsi Düşənbə şəhərində proktoloqların ümumittifaq elmi-praktik konfransının materiallarında, "Proktoloji xəstələrin rayon mərkəzi xəstəxanası şəraitində müalicəsi" elmi əsəri Moskvada "Proktologiyanın problemləri" elmi toplusunda çap olunur. Həmin il onun "Kəskin paraproktit" adlı geniş həcmli sanballı monoqrafiyası işıq üzü görür. Bu əsərdə kəskin paraproktitin əmələgəlmə səbəbləri və xəstəliyin

patogenezinin mühüm aspektləri araşdırılmış, radikal cərrahi müalicənin əsasları dəqiqləşdirilmişdir. Müəllif həmçinin "Cərrahlıq və terapiya üzrə praktik vərdişlər" adlı tədris-metodik işləmələr hazırlamış və çap etdirmişdir.

Prof. H. A. Sultanovun 1990-1992-ci illərdə Azərbaycan-Türkiyə cərrahlarının simpoziumlarının materiallarında çap olunmuş məqalələri, elmi işlərinin tezisləri, Türkiyə-Azərbaycan cərrahlarının birgə elmi-praktik konfranslarında məruzələri diqqətə layiqdir:

- "Kəskin xolesistitli xəstələrdə qanın venadaxili lazer şüalandırılması";

- "Müxtəlif etiologiyalı mədə-bağırsaq qanaxmaları zamanı müalicə taktikasına dair";

- "Şəkərli diabeti olan xəstələrdə xərçəngin irinli-nekrotik ağırlaşmalarının gentamisin-metilurasil qarışığı ilə müalicəsi";

- "Kəskin paraproktitin təsnifatı və müalicəsi".

1992-1993-cü illərdə H. Sultanov əməkdaşları ilə birlikdə bir sıra problem məsələlərin həll edilməsinə həsr olunmuş elmi axtarışlarla məşğul olmuş və onların nəticələrini elmi məqalələr şəklində dövri elmi jurnallarda işıqlandırmışdır.

Bu illərdə "Yayılmış irirnli peritonitli xəstələrdə hemosorbsiya və venadaxili lazeroterapiyanın müştərək tətbiqi", "Postxolesistektomik sindromun səbəbləri və ağırlaşmaları", "Aşağı ətrafların donmalarının diaqnostikası, lazer və suda həll olan məlhəmlərlə müalicəsi", "Qarının odlu silah yaralanmalarının müalicəsinin nəticələri", "Odlu silah yaralanmalarının aktiv cərrahi müalicəsi", "Qarının kəskin küt travmaları zamanı differensial diaq-



nostika prosesində EHM-in istifadəsinin perspektivləri", "Appendikulyar infiltrat zamanı cərrahi müalicə taktikası", "Qaraciyərdən kənar öd yolları üzərində təkrar cərrahi əməliyyatlar", "Kəskin bağırsaq keçməzliyinin kompüter diaqnostikası", "Dinamiki bağırsaq keçməzliyinin diaqnostikasında elektrofizioloji metodların dəyəri", "Anal çatların kəslib götürülməsi əməliyyatlarında ağırlaşmaların səbəbləri və onların qarşısının alınması tədbirləri", "Yumşaq toxumaların odlu silah yaralanmalarının müalicə prinsipləri", "İrinli yaraların müalicəsində immobilizasiya olunmuş proteazların tətbiqi", "Azenerjili lazerlərin əməliyyatdan sonrakı irinli yaraların müalicəsində tətbiqinin eksperimental əsaslandırılması", "Öd yollarında aparılmış əməliyyatlardan sonra irinli ağırlaşmaların müalicəsində maqnitolazeroterapiyanın effektliyi" məqalələri respublika və respublikadan kənarda elmi tibb mətbuatında çap olunmuşdur.

Prof. Sultanovun 1994-1995-ci illərdə elmi axtarışlarının mövzuları cərrahlığın müxtəlif sahələrini əhatə etmişdir: "Kəskin paraproktitin müalicəsinə dair", "Öd yollarında aparılan əməliyyatlardan sonrakı ağırlaşmalar və cərrahi taktika", "İrinli xolangitin müalicəsində azenerjili lazerlərin tətbiqi", "Yoğun bağırsaqların odlu silah yaralanmaları zamanı cərrahi taktika", "Düz bağırsağın zədələnmələri", "Qarın boşluğu orqanlarının odlu silah yaralanmaları zamanı irinli-septiki ağırlaşmaların müalicəsində ultrasəs kavitasiyasının tətbiqi", "Kəskin hemorroyun ilkin mərhələlərində cərrahi müalicə", "Hemorroidektomiyadan sonra bəzi ağırlaşmalar", "Ətrafların donmalarında orqanizmin immun sisteminin və koaquloqrammanın vəziyyəti", "Çənbər bağırsağın sol yarısının ağırlaşmış şişlərinin cərrahiyyəsində termi-

no-lateral U-şəkilli anastomoz", "Hamilə qadınlarda hemorroy", "Çənbər bağırsağın perforativ şişləri və diastatik cırılmaları zamanı nəcis peritonitinin diaqnostikası və müalicəsi", "Yoğun və düz bağırsaq yaralanmalarında cərrahi taktika", "Doğum yapan qadınlarda hemorroid boğulmanın profilaktikası", "Dinamiki bağırsaq keçməməzliyi: patogenez və müalicə", "Kəskin paraproktitin müalicəsi","Bakı şəhəri KTTYX-nın materialları əsasında qastroduodenal qanaxmaların analizi", "Çənbər bağırsağın ağırlaşmış xərçənginin cərrahi müalicəsi zamanı diaqnostik və taktiki səhvlər", "Qadın məsləhətxanası şəraitində proktoloji yardımın təşkili təcrübəsi", "Yoğun bağırsağın sağ yarısının rentgen-endoskopik müayinəsi", "Hartman əməliyyatından sonra yoğun bağırsağın tamlığının bərpası", "Hamilə qadınlarda babasil və onun profilaktikası", "Odlu silah mənşəli irinli-nekrotik yaraların müalicəsində yeni sorbent sarğı materiallarının tətbiqi", "Xora mənşəli qastroduodenal qanaxmaların müalicəsində cərrahi taktika","Mərkəzi rayon xəstəxanası şəraitində tipik proktoloji əməliyyatlarda çəkilən xərclərin müqayisəsi" elmi məqalələri çapdan çıxmışdır. Alim bu illər ərzində tibb məktəblərinin tələbələri üçün proktologiyaya dair dərs vəsaiti yazmış, 2 metodik işləmə hazırlamış və çap etdirmişdir.

Elmi yaradıcılığını uğurla davam etdirən alim 1996-cı ildə kafedranın əməkdaşları ilə birlikdə cərrahiyyənin ən aktual məsələlərinə həsr edilmiş elmi tədqiqatlarının nəticələrini Moskvada N. İ. Piroqov adına cərrahlar cəmiyyətinin I konqresinin, Vitebks şəhərində Belorus cərrahlarının I beynəlxalq konqresinin, Antalyada 13-cü Avroasiya qastroenteroloq və cərrahlarının konqresinin materiallarında, "Azərbaycan Tibb jurnalı", "Sağlam-

lıq", "Хирургия", "Вестник хирургии им. И.И. Грекова» jurnallarında çap etdirir. Həmin elmi məqalələrdən aşağıdakıları qeyd etmək olar: "Kəskin paraproktitin təsnifatı və müalicəsi","Çənbər bağırsağın şiş mənşəli obturasion keçməməzliyi zamanı cərrahi taktika","Odlu silah yaralanmaları ağırlaşmalarının hərbi-səhra cərrahlığı şəraitində müalicəsinin nəticələrinin yaxşılaşdırılması yolları", "Xora mənşəli qastroduodenal qanaxmalar zamanı endoskopik medikamentoz denervasiya metodunun tətbiqi","Yoğun bağırsaq anastomozlarının çatışmazlığının profilaktikası","İrinli-iltihabi ağırlaşmış odlu silah yaraları olan xəstələrdə endogen intoksikasiyanın dərəcəsinin təyini", "Şəkərli diabet fonunda aşağı ətrafların irinli-nekrotik prosesi və qanqrenasının müştərək müalicəsi", "Hamilə qadınlarda kəskin iltihablaşmış babasil düyünlərinin kliniki gedişi və müalicəsi", "Klofelinlə uzadılmış epidural-sakral anesteziya", "Düz bağırsağın distal hissəsində və aralıqda aparılan əməliyyatlar zamanı klofelindən istifadə etməklə epidural-sakral anesteziyanın tətbiqi", "Lazeroterapiyanı tətbiq etməklə kəskin paraproktitin radikal cərrahi müalicəsi", "Düz bağırsaq fistullarının cərrahi müalicəsi", "Çənbər bağırsağın şiş mənşəli obturasion keçməməzliyi zamanı diaqnostika və cərrahi taktika", "Yoğun bağırsaq əməliyyatlarında anastomozun tutmamazlığının proqnozlaşdırılması və profilaktikası","Çənbər bağırsağın şiş mənşəli obturasion keçməməzliyinə görə qoyulmuş kolostomalı xəstələrdə bərpaedici-rekonstruktiv əməliyyatlar".

1997-1999-cu illərdə o, "Kəskin bağırsaq keçməzliyinin kompleks müalicəsində plazmaferezin tətbiqi","Qaraciyərin exinokokkozu zamanı diaqnostika və müalicə taktikası","Bağırsaq keçməməzliyi ilə ağırlaşmış çənbər ba-

ğırsağın xərçəngində cərrahi taktika”, “Qeyri-şiş mənşəli yoğun bağırsaq keçməməzliyində təcili əməliyyat zamanı cərrahi taktika”, “Xora mənşəli qastroduodenal qanaxmalarda endoskopik müalicə üsullarınını müqayisəli analizi”, “Babasil düyününün kəskin trombozu və onun cərrahi müalicəsi”, “Çənbər bağırsağın xərçəngi təxirəsalınmaz abdominal cərrahiyyənin problemi kimi”, “Hemostaz göstəricilərinin korreksiyasının yoğun bağırsaq anastomozu tikişlərinin tutarsızlığına təsiri”, “Kəskin və xroniki paraproktitə görə aparılmış əməliyyatlardan sonra anal jomun çatışmazlığı”, “Qastroduodenal qanaxmalarda endoskopik müalicə metodu”, “Sfinkter əzələsinin çatışmazlığı olan xəstələrin cərrahi müalicəsi”, “Şiş mənşəli obturasion çənbər bağırsaq keşməməzliyi olan 70 yaşdan yuxarı xəstələrdə cərrahi müalicə taktikası”, “Büzdümün epitelial yollarının radikal müalicəsi”, “Büzdümün kəskin formalı epitelial yollarının ultrasəs tətbiq etməklə cərrahi müalicəsi”, “Terminal yastı kolostomiyanın modifikasiyası”, “Anal jomun zədələnməsinin cərrahi müalicəsi”, “Digitoklaziya metodu ilə qaraciyərin rezeksiyası”, “Düz bağırsaq-uşaqlıq yolu fsitullarının cərrahi müalicəsi” kimi sanballı elmi məqalələrini əməkdaşları ilə birlikdə ölkəmizdə və ölkəmizdən kənar tibb ədəbiyyatında çap etdirmişdir.

Yorulmaq bilməyən, tükənməz enerjili görkəmli alim yeni XXI əsrdə də öz gərgin elmi-pedaqoji və praktik fəaliyyətini uğurla davam etdirir. I-müalicə-profilaktika fakültəsinin IV,V,VI kurs tələbələrinə maraqlı mühazirələr oxuyur, dissertantlara və aspirantlara dəyərli məsləhətlərini verir, onları düzgün istiqamətə yönəldir, eyni vaxtda kafedranın elmi, xəstəxananın cərrahi bölümünün müalicə işlərinə rəhbərlik edir, Universitetimizin ictimai işlərində yaxından iştirak edir. Elmi axtarışları müxtəlif istiqa-

mətlərdə davam etdirir. “Eksperimentdə qaraciyər rezeksiyası”,“Rekto-vaginal fistula və anal sfinkter çatışmazlığı olan xəstələrdə cərrahi taktika”,“Rektosele babasilin əmələ gəlməsində etioloji faktor kimi”,“Kolorektal qanaxmalar zamanı cərrahi taktika”,“Qaraciyərin rezeksiyasından sonrakı ağırlaşmaların səbəbləri”,“Qarnın küt travması zamanı mədəaltı vəzin zədələnmələri”, “Qaraciyərin rezeksiyasından sonra baş verə biləcək ağırlaşmaları proqnozlaşdıran faktorlar”,“Eksperimentdə qaraciyərin maye şırnağı və əzmə üsullari ilə rezeksiyası”,“Yoğun bağırsaq qanaxmalarının diaqnostikası və müalicəsi”,“Düz bağırsaq, uşaqlıq və uşaqlıq yolunun birgə sallanması”, “Cərrahi əməliyyatdan sonra anal sfinkter çatışmazlığı”,“Hemorroidal düyünlərin kəskin trombozu: terminologiya və cərrahi müalicə metodunun seçilməsi fikirlərinə dair”,“Peritonit - çənbər bağırsağın ağırlaşmış xərçənginin cərrahiyyəsinin problemi kimi”, “Kəskin irinli infeksiya və yaraların irinli-iltihabi ağırlaşmalarının profilaktikası və müalicəsi”, “Qeyri-şiş mənşəli düz bağırsaq xəstəliklərində qaraciyərin funksiyasının öyrənilməsi”, “Əməliyyatdan sonrakı qarındaxili irinli-septiki ağırlaşmalar abdominal cərrahiyyənin problemi kimi”,“Proktoloji xəstələrdə qaraciyərin funksional vəziyyəti” kimi yekunlaşmış elmi işlər müxtəlif tibb ədəbiyyatlarında dərc olunur.

Son 15 ildə professorun elmi yaradıcılığı daha da genişlənmiş, təcili və təxirəsalınmaz cərrahlığın əksər sahələrini, cərrahi koloproktologiya, herniologiya, hidatidologiya, cərrahi qastroenterologiya və dügər mühüm sahələri əhatə etmişdir. Bu illərdə o, E.A. Əliyevlə birgə “Düz və yoğun bağırsaq operasiyalarının atlası” (2005), “Koloproktologiya”(2011) dərslikləri, rəhbərlik etdiyi kafedranın əməkdaşları tərəfindən onun ümumi redaktor-

luğu altında "Qarın boşluğunun təcili və təxirəsalınmaz cərrahlığı" (1998) adlı irihəcmli Rəhbərlik, ümumilikdə 50-ə qədər elmi əsər, metodik tövsiyələr və vəsaitlər nəşr etdirir.

Beləliklə, professor H.A. Sultanovun çoxşaxəli fəaliyyəti respublikamızda cərrahlığın, xüsusilə cərrahi koloproktologiyanın inkişafına, bu sahədə yeni cərrahi üsulların işlənib hazırlanmasına və həyata keçirilməsinə, bir sıra ağır proktoloji xəstəliklərdə cərrahi əməliyyatların aparılması çətinliklərinə görə tətbiq olunmayan, lakin böyük əhəmiyyət kəab edən ona qədər cərrahi əməliyyat üsullarının yenidən işlənilməsinə, təkmilləşdirilməsinə, cərrahlıq fənninin tədrisinə, praktik cərrah və elmi kadrların hazırlanmasına həsr olunmuşdur.

Professor H.A.Sultanov humanistliyi, böyük elmi potensialı, insanlara qarşı qayğıkeşliyi ilə yanaşı yüksək təşkilatçılıq bacarığı ilə seçilir. İstər kənd xəstəxanasının baş həkimi, istərsə də Bərdə rayon Mərkəzi xəstəxanasının baş həkimi işlədiyi dövrdə onun bu qabiliyyəti qabarıq şəkildə üzə çıxmış, ölkə səhiyyəsi rəhbərliyinin diqqətindən yayınmamışdır. O, 1988-1993-cü illərdə Azərbaycan Tibb Universitetinin aparıcı fakültələrindən birinin - I-müalicə-profilaktika fakültəsinin dekanı vəzifəsində işləmişdir. 1990-cı ildən başlayaraq Tibb Universitetinin I-cərrahi xəstəliklər kafedrasına rəhbərlik edir. Kafedraya rəhbərlik etdiyi müddətdə tədris-metodik işlərin keyfiyyətinin yaxşılaşdırılması və elmi kadrların hazırlanmasında onun müstəsna xidmətləri olmuşdur.

Görkəmli alim, istedadlı cərrah kimi tanınan H.A. Sultanov cərrahlığın ən aktual və ağır problemlərinə həsr olunmuş 300-ə qədər elmi əsərin, 6 ixtiranın və səmərələşdirici təklifin, 11 monoqrafiya və dərsliyin müəl-

lifidir. İşlədiyi müddət ərzində minlərlə cərrahi əməliyyat həyata keçirmişdir. Onun rəhbərliyi altında 34 namizədlik, 6 doktorluq dissertasiyası müdafiə olunmuşdur 4 namizədlik və 2 doktorluq dissertasiyası sona çatdırılmışdır, 1 doktorluq dissertasiyasının üzərində tədqiqatlar davam etdirilir.

Professor H.A.Sultanov Azərbaycan tibb elminin nailiyyətlərini respublikamızın hüdudlarından kənarda tanıtmaq üçün də çox böyük fəaliyyət göstərmiş, istər MDB ölkələrində, istərsə də xarici tibb mətbuatında cərrahiyyənin, xüsusilə proktologiyanın maraqlı, aktual problemlərinə, yeniliklərinə həsr edilmiş elmi məqalələrlə və məruzələrlə çıxış etmişdir. “Хирургия”, “Проблемы проктологии”, “Анналы хирургической гепатологии”, “Гастроэнтерология, гепатология, колопроктология”, “Вестник хирургии им. И.И. Грекова”, “Клиническая хирургия” kimi jurnallarda dərc olunmuş sanballı elmi əsərləri onun nüfuzunun ölkəmizin sərhədlərindən kənarda da artırır. Professor Ukrayna, Belorusiya, Gürcüstan, Şimali Qafqaz və Orta Asiya ölkələrinin regional tibb mətbuatında da səhiyyəmizi yüksək səviyyədə tanıtmış, dəyərli əsərlərlə çıxış etmişdir.

Görkəmli alim 1972-ci ildən kafedranın assistenti, sonralar dosenti, professoru və müdiri kimi ali tibb təhsili ilə məşğul olmuş, iş yoldaşlarının və tələbələrinin böyük rəğbətini qazanmışdır. Onun təcrübi məşğələləri, mühazirələri nəinki tələbələr, həmçinin gənc cərrahlar üçün də çox faydalıdır. Yüksək tədris metodikasına yiyələnmiş professor ölkəmizdə ilk koloproktoloji məktəbin yaradıcısıdır. Onun hazırladığı həkim kadrları, koloproktoloqlar respublikamızın əksər rayonlarında, hətta bir çox xarici ölkələrdə uğurla işləyirlər.





Professor H.A.Sultanovla bir kollektivdə işləmək böyük xoşbəxtlikdir. Fəaliyyəti dövründə o, yüksək elmi qabiliyyəti, intellektual səviyyəsi, dərin zəkası, xəstələrə və işçilərə qarşı qayğıkeşliyi ilə fərqlənmişdir. Gənc cərrahlar onu əsl müəllim, ustad hesab edir, ona böyük hörmət bəsləyirlər. Tələbələrinə qayğıkeş, həssas olmaqla yanaşı, onlara qarşı olduqca tələbkar olan H.A. Sultanovun onların həkim, Vətəndaş kimi formalaşmasına böyük əmək sərf edir.

Tanınmış alim H.A.Sultanov 60 ilə yaxın həkimlik fəaliyyəti dövründə heç vaxt təltif, mükafat dalınca qaçmamışdır. Həmişə Vətənimizə, xalqımıza ürəklə xidmət etmiş, gərgin əməyi, dərin elmi düşüncəsi, möhkəm iradəsi, prinsipiallığı və tələbkarlığı ilə fərqlənmişdir. Neçə-neçə ailəyə sevinc, sağlamlıq bəxş etmiş bu insan xalqımızın qəlbində ən layiqli mükafatını almışdır. Alimin adı nəinki işlədiyi kollektivdə, ölkəmizin hər yerində - bütün rayon və şəhərlərində hörmətlə çəkilir, rəğbətlə qarşılanır.

Onun əməyinə dövlətimiz tərəfindən yüksək qiymət verilmişdir. "Şərəf Nişanı" və "Şöhrət" ordenləri, bir sıra medallar və fəxri fərmanlarla təltif olunmuş, "Azərbaycan Respublikasının əməkdar həkimi", "Azərbaycan Respublikasının əməkdar elm xadimi" fəxri adlarına layiq görülmüşdür.

Professor H.A.Sultanov böyük, şərəfli həyat yolu keçmişdir. Həyat və yaradıcılığının bütün dövrlərində yüksək mədəniyyət, milli ictimai şüur, prinsipiallıq, tükənməz əmək qabiliyyəti, sadəlik, təvazökarlıq və humanistlik kimi yüksək insani keyfiyyətlər nümayiş etdirmişdir. Böyük alim, cərrah, sevimli müəllimimiz, əməkdar elm xadimi, professor H.A.Sultanov həyatının müdrik çağında dünyamızı dəyişdi. Olduqca sadə, sadə olduğu qədər də bö-

yük insan, təmiz qəlbli, geniş ürəkli və mehriban şəxsiyyət kimi Həsən müəllimin əziz xatirəsi onu tanıyan hər kəsin, tələbələrinin, həmkarlarının, dostlarının qəlbində əbədi yaşayacaq və yaşadılacaqdır. Vətənpərvərlik nümunəsi, elm təşkilatşısı, səhiyyə fədaisi ... kimi o, daim xatırlanacaq, böyük ehtiramla yad ediləcəkdir. Allah rəhmət etsin!!! Məzarı nurla dolsun!!! Ruhu şad olsun!!!

***ATU-nin I-cərrahi xəstəliklər kafedrasının kollektivi***

# Professor H.A. SULTANOV HAQQINDA TƏƏSSÜRRATLAR VƏ XATİRƏLƏR



## QAYĞIKEŞ MÜƏLLİM, BACARIQLI HƏKİM, XEYİRXAH İNSAN

Bəşər tarixi boyunca böyük inkişaf yolu keçmiş insan bütün dövrlərdə müəllim dühasının tərbiyəsi, köməyi, qayğısı sayəsində aliləşib, müqəddəsləşib. Gənc nəslin təlimtərbiyəsində, yüksək mədəni səviyyəyə çatmasında, dolğunlaşıb mətinləşməsində əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Sultanov Həsən Abbas oğlunun müstəsna xidmətləri olmuşdur.

Mənim Həsən müəllimlə bir alim, həkim, müəllim kimi tanışlığım 1992-ci ildən başlamışdır. Doğrudur, mən əvvəllər də onun haqqında çox eşitmişdim. Ancaq son 20 ildə eyni ali məktəbdə birgə işləməyimiz onun bütün müsbət keyfiyyətlərini daha yaxından duymağa, onu yenidən kəşf etməyə geniş imkan vermişdir.

Professor H.A.Sultanov son dərəcə nadir keyfiyyətlərə, geniş dünyagörüşə, unikal həkimlik və cərrahlıq qabiliyyətlərinə malik şəxsiyyət idi. Onun yiyələndiyi ali keyfiyyətlərin fövqündə hər şeydən əvvəl onun müəllimliyi dururdu. Həsən müəllim nəinki Azərbaycan Tibb Universitetində, mən deyərdim ki, bütövlükdə ölkəmizdə barmaqla göstərilən, sayılıbseçilən pedaqoqlardan, sevilən müəllimlərdən idi. Professor H.A.Sultanov uzun müddət Imüalicəprofilaktika fakültəsinin dekanı vəzifəsində ləyaqətlə işləmiş, 1990-cı ildən 2012-ci ilə kimi Universitetimizin I cərrahi xəstəliklər kafedrasının müdiri olmuşdur. Bu vəzifələr böyük məsuliyyət, gərgin əmək, yüksək intellektual keyfiyyətlər tələb edir. Həsən müəllim hər 2 vəzifənin öhdəsindən layiqincə gəlmişdir. Əmək fəaliyyəti ərzində hansısa tələbənin, həkimin və ya xəstənin, Həsən müəllimdən inciməyinin, ondan bədgüman ayrılmağının şahidi olmamışam. O, mülayim, həlim təbiətli olduğu qədər də tələbkar mütəxəssis idi. Lakin bu tələbkarlığı elə ustalıqla, elə incəliklə yerinə yetirərdi ki, qarşısındakı şəxs işində yol verdiyi hər hansı qüsura görə özünə bəraət qazandırmağa çalışmaz, əksinə qüsurunu dərhal dərk edər, səhvini anlayar, ən qəribəsi isə o idi ki, qüsurunu, səhvini aradan qaldırmaq üçün elə Həsən müəllimin özündən kömək umar, məsləhət istərdi. Həsən müəllim heç zaman yüksək, amiranə tonla, ötkəmlə danışmazdı. Onun tərbiyə metodikasının əsasında yalnız elmi, mədəni yanaşma dururdu. Ona görə də Həsən müəllim tələbələrini, tələbələri də Həsən müəllimi ürəkdən sevərdilər.

Həsən müəllim bir alim kimi ölkənin elmi ictimaiyyəti arasında özünəməxsus yer tutmuşdur. O, tibb elminin inkişafına, gənc nəslin inkişafına daim töhfələr ver-

miş, bu yolda böyük işlər görmüş, ağır əmək sərf etmişdir. Professor H.A.Sultanovun rəhbərliyi altında 39 dissertasiya işi müdafiə edilmişdir. Professor H.A.Sultanovu tibb aləmində tanıdan 350-dən artıq elmi əsəri, o cümlədən 12 sanballı monoqrafiya və dərslikləri geniş oxucu kütləsinin istifadəsinə verilmişdir.

Ən ali insani keyfiyyətlərə malik olan Həsən müəllim ömrünün müdrik çağında – 82 yaşında uzun sürən ağır xəstəlikdən sonra vəfat etdi. Lakin onun arzuları, ideyaları, istəkləri gerçəkləşdi, yarımçıq qalmış arzuları, ideyaları və istəkləri mütləq gerçəkləşəcək. Onun uzun illər rəhbərlik etdiyi kafedra artıq ATUnun Tədris Cərrahiyyə klinikasının möhtəşəm, əzəmətli korpusuna köçmüşdür. Tale Həsən müəllimə bu gözəl korpusu görməyə nəsib etdi. Böyüdüyü, təkmilləşdiyi, uzun illər rəhbərlik etdiyi kafedranı, övladları qədər sevdiyi tələbələrini, yetirmələrini etibarlı, güvənli əllərə əmanət etdi. Əminəm ki, elə həmin tələbələri, yetirmələri, gənc həmkarları Vətənimizin hər yerində, yaxın və uzaq ölkələrdə onun yolunu uğurla davam etdirəcək, başını həmişə uca edəcəklər. Allah ona qəniqəni rəhmət eləsin!!!

**ƏHLİMAN ƏMİRASLANOV**

***Akademik, Milli Məclisin Səhiyyə Komitəsinin sədri***



## HƏSSAS İNSAN
## (80 illik yubileyinə)

Ulu Yaradan insanlara xoşbəxtliyi müəyyən xeyirxah kəslərin vasitəsi ilə bəxş edir. Həsən müəllimin insanlara bəxş etdiyi xoşbəxtlik onun zəkası, əllərinin hikməti ilə saysız-hesabsız xəstələrin müalicəsi nəticəsində olmuşdur. O, çətin cərrahiyyə əməliyyatı aparan, başqa sözlə insanları xoşbəxtliyə çatdıran zaman böyük həyəcan, əsəb gərginliyi keçirmişdir. Bununla belə, onu ən xoşbəxt insan hesab edirəm. İnsanlara dünyada ən qiymətli nemət olan cansağlığı bəxş etməkdən, xalqa ürəkdən qulluq etməkdən, həyatda insanlara gərək olmaqdan böyük xoşbəxtlik olarmı?!

Həsən müəllim təhsilini də, peşəsini, vəzifəsini də alın təri, illər boyu, gecə-gündüz bilmədən çəkdiyi halal zəhməti hesabına qazanmışdır. Heç kəsdən



mərhəmət ummamışdır. Özü kölgəli omuş, özgəsinin kölgəsində boy atmamış, həmişə əl tutmuş, büdrəyəni yıxılmağa qoymamış, yıxılanı ayağa qaldırmış, minlərlə insanın ümid yeri, pənah yeri olmuşdur.

Prof. H.A. Sultanov elmin yüksək zirvəsinə çatmaq üçün çox əziyyət çəkdiyi üçün gənc nəsilə həmişə böyük qayğı göstərmiş, onlara həmişə arxa olmuş, öz bilik-bacarığını yüksək həvəslə onlara öyrətməkdən zövq almışdır. O, böyük cərrahlar ordusunun sərkərdəsi olaraq özünün neçə-neçə davamçılarını yetişdirmiş, onların hər birinin arxasında dayanmış, onlara örnək olmuşdur. Həsən müəllim gənc cərrahlara tibb elminin hikmətlərini ciddi tələbkarlıqla aşılamışdır.

Keşməkeşli dövrümüzün çətinliklərinə baxmayaraq, o, uzun illər rəhbərlik etdiyi kafedranın işini xeyli təkmilləşdirmiş, səmimi elmi-pedoqoji kollektiv formalaşdırmış, işçilərin nizam-intizama, qayda-qanunlara riayət etməsinə nail olmuş, nüfuzlu koloproktoliji məktəb yaratmışdır. Bu gün onun tələbələri ölkəmizin hər yerində, yaxın və uzaq xaricdə uğurla fəaliyyət göstərir, Universitetimizin, müəllimlərinin, o cümlədən Həsən müəllimin başını uca edirlər. O, işlədiyi müddətdə heç zaman xəstələri ümidsiz etməmiş, onların müalicəsinə mümkün yardımını göstərmiş, zəngin təcrübəsini və dərin biliklərini əsirgəməmişdir.

Müdrik şəxsiyyət, obyektiv və prinsipial müəllim, həkim və Universitetimizin çoxminli professor-müəllim və tələbə heyətinin böyük hörmətini qazanmış bu sadə insanın ideyaları, elmi əsərləri, səmərələşdirici təklifləri, dərs vəsaitləri və dəslikləri gənc kadrlarla, xalqımıza, tibb elminə, cərrahlıq elminə, tələbələrinə və sadiq dostlarına ölümündən sonra da çox lazımdır.

Mənim arzum budur ki, Həsən müəllimin ruhu həmişə şad olsun, qəbri nurla dolsun! Allah ona qəni-qəni rəhmət eləsin!!!

**BÖYÜKKİŞİ AĞAYEV**

***Akademik, əməkdar elm xadimi, Akad. Topçubaşov adına Elmi Cərrahlıq Mərkəzinin direktoru, Azərbaycan Tibb Universitetinin II-cərrahi xəstəliklər kafedrasının müdiri***



## ƏSİL ALİM VƏ DOST
## (80 illik yubileyinə)

Alim üçün hər günün öz qayğıları, ağırlıqları var. Xəstəxanada səhər konfransı, bir neçə şöbəyə baş çəkmək, aspirantlarla, dissertantlarla məsləhətləşmək, onlara dəyəli tövsiyələr vermək, xəstələrin qəbulu... Universitetin elmi, ictimai tədbirləri, Cərrahlar cəmiyyətinin iclası, respublika və ya beynəlxalq səviyyəli elmi tədbirlərin keçirilməsinin təşkili, onların işində işrirak, ixtisas üzrə problem Komissiyasının, Böyük Elmi Şuranın və ya Dissertasiya Şurasının iclasında iştirak... Həsən müəllimin uzun illər gündəlik iş qrafiki belə olmuşdur.

Şübhəsiz, hər bir həkim ilk görüşdə xəstənin bütün şıltaqlığını həkim duya bilməsə onun ürəyinə yol tapmayacaq və bütün cəhdləri, bütün addımları hə-





dər gedəcək, nəticəsiz bitəcəkdir. Həsən müəllim ən ağır xəstənin belə halına yandığını büruzə verməmiş, xəstədə öz xəstəliyinə bədgümanlığı aradan qaldırmış, ani olaraq onun bütün ağrılarını unutdurmuşdur.

Cərrahiyyə əməliyyatının həkimdə oyatdığı emosional vəziyyəti təsəvvür etmək çətin deyil. Ən adi yaranı da hissiz, həyəcansız kəsmək, təmizləmək mümkün olmur. Həsən müəllimin apardığı cərrahi əməliyyatların əksəriyyəti uğurlu olmuşdur. Alim respublikamızın heç bir rayonundan, heç bir kəndindən kömək əlini əsirgəməmişdir. Həsən müəllimin skalpeli vaxtsız ölümlərin yolunu kəsmiş, insanlara şəfa vermişdir. Görəsən, bütün həyatını ömürləri uzatmağa həsr edən bir təbib üçün bundan böyük bəxtiyarlıq olarmı?!

Alimlik əziyyət görmək, çətinə düşmək, istirahətdən, səyahətdən könüllü imtina deməkdir, səhərin açılmasını, axşamın düşməsini, iş saatının nə vaxt bitməsini unutmaq deməkdir. Əsil alimlər mənəvi saflıq mənbəyini məhz bu çətinliklərdə görür, zəhmət təri tökür, saç ağardırlar. Xalqa, Vətənə nə isə verirlər. Həsən müəllim də məhz belə alimlərdən olmuşdur.

Həqiqi alim üçün elmin hüdudu, sərhədi yoxdur. Nə qədər öyrəniləsi, nə qədər tapılası şeylər var! Öyrənilənlər, kəşf olunanlar, fəth edilənlər dəryada, ümmanda bir damcıdır. Elmdə kim ki, axar çaya bənzəyir, dayanmağın nə olduğunu bilmir, çaylar onu ənginliklərdən keçirir, dağa-daşa, qayalara çırpır, bərkidir, mətinləşdirir. Əsil şöhrət çələngi belələrinə - bərkdən-boşdan uğurla çıxanlara, bərkimişlərə nəsib olur, əsil qiymət belələrinə verilir. Həsən Sultanov axtarışlardan, araşdırmalardan çəkinmədən əsil alimə xas olan narahat günlərlə dolu zəngin həyat yaşamışdır.



Həsən müəllimin şöhrəti ayaq açıb tezliklə hər tərəfə yayılmışdır. O, cərrahlıq fəaliyyəti ərzində böyüklü-kiçikli minlərlə cərrahi əməliyyat aparmışdır. Onların hər birindən mühüm nəticə çıxarmış, ən adi şeyləri belə nəzərdən qaçırmamışdır. Alimin səmərələşdirici təklifləri, elmi ideyaları və praktik tövsiyələri klinik təcrübədən yaranmış, təcrübədə özünü doğrultmuş, respublikamızın bir çox cərrahiyyə klinikalarında tətbiq edilmiş və tətbiq edilməkdədir. İxtiraçı-cərrahın tibb elminin inkişafında qazandığı nailiyyətlər yüksək qiymətləndirilmişdir. O, yaxşı həkim, böyük Vətəndaş olmuşdur. Belə insanlar bir ailə, bir ev üçün yaşaya bilməzdilər. Həsən müəllimi həmişə ülvi məqsədlər düşündürmüşdür. O, daim inkişafla, yeniliklə nəfəs almışdır. H.A. Sultanov respublikamızın əməkdar elm xadimi, əməkdar həkim kimi yüksək adlar almışdır. Prezidentimiz onu "Şöhrət" ordeni ilə təltif etmişdir. Təltiflərdən birinə, qeyri-rəsmisinə - "Gözəl insani keyfiyyətlərinə görə", birincilər sırasında layiq görülmüşdür.

Aramızdan tez getsə də Həsən müəllim daim qəlbimizdədir, yanımızdadır. Allah ona rəhmət eləsin!!!

**ADİLƏ NAMAZOVA**
***Akademik, Əməkdar elm xadimi,***
***Azərbaycan Tibb Universitetinin***
***Uşaq xəstəlikləri kafedrasının müdiri***



# YAXŞI İNSANLAR OLMAZSA BƏŞƏRİYYƏT ÇÖKƏR

Həsən müəllim insanlığın yetişdirdiyi azsaylı şəxsiyyətlərdən biridir. İnsanları tutduqları mövqeyə görə 3 qrupa bölmək olar. Birinci qrup insanlar azsaylıdırlar, yaşadığı şəraitdən asılı olmayaraq, hətta ən çətin vəziyyətlərində belə yaxşılıq etmək, ideal insan olmaq mövqeyini dəyişməyən insanlardır. İkinci qrup insanlar da mövqeyini dəyişməyən azsaylı insanlardır, hətta cənnətə düşsələr belə başqalarına zərər vermək adətindən əl çəkməyənlərdir. Üçüncü qrup insanlar isə çoxsaylı adi insanlardır və bunlar düşdüyü şəraitdən, yaşadığı cəmiyyətdən asılı olaraq dəyişərək "yaxşı" və ya "pis" insanlar ola bilirlər. Bütün dinlərin, ideologiyaların, rejimlərin, dövlətlərin, siyasətlərin məqsədi də məhz adi insanları yaxşı yöndə tərbiyə etməkdən

ibarətdir. İnsanlığın təməl sütunları da məhz bu azsaylı yaxşı insanlardır. Bunlar olmazsa bəşəriyyət çökər. “Yaxşı insana nümunə olaraq kimi göstərə bilərsən?” sulanına düşünmədən “Həsən müəllimi” deyirəm. Həsən müəllimin yaşam ideologiyası insanlara yaxşılıq etmək, kömək etmək, dəstək olmaqdan ibarət olmuşdur. Ömrünün, enerjisinin böyük qismini özündən çox ətrafdakılarına vermişdir.

Həsən müəllimlə ilk tanışlığım tələbəlik dövrünə, 1983-cü ilə təsadüf edir. O vaxt mən 3-cü kursda oxuyurdum və tələbə elmi cəmiyyətinin üzvü kimi I-cərrahi xəstəliklər kafedrasında Dosent Səxavət Rəfiyevin rəhbərliyi altında elmi işlə məşğul olurdum. O zaman Həsən müəllim kafedranın dossenti və tədris hissə müdiri idi. Universiteti bitirdikdən sonra klinik ordinaturaya daxil oldum və 1986-1988-ci illərdə Həsən müəllimin rəhbərliyi altında çalışdım. Bu dövrdə onunla birlikdə bir çox elmi nəşrlərimiz oldu və dissertasiya işi planlaşdırdıq. Epitelial büzdüm kanalının müalicəsi üçün yeni səmərələşdirici təklif irəli sürdük və ixtiraya müraciət etdik. Bu işi genişləndirərək zəngin material topladıq, hətta Moskvada professor Rıjix ilə məsləhətləşdik. Planımız aspiranturaya daxil olmaq və elə ilk illərində müdafiə etmək idi. Lakin mənim İ.M. Seçenov adına Moskva Tibb Akademiyasına aspiranturaya daxil olmamla əlaqədar bu işlər yarımçıq qaldı. Buna baxmayaraq aspiranturanı bitirdikdən sonra Həsəm müəllim məni kafedraya aassistent vəzifəsinə qəbul etdi (1991). Həsən müəllim mənə həmişə dəstək olmuş, tövsiyələr vermiş və inkişafım üçün mümkün olan hər şeyi etmişdir. Kafedrada assisent olduğum illər Azərbaycanda müharibə dövrü idi, və demək olar ki, əsas elmi prak-



tik işlər hərbi-səhra cərrahiyyəsinə həsr edilmişdi. Bu dövrdə yenə Həsən müəllimin dəstəyi ilə aşağı ətraf donmalarının müalicəsi üçün praktiki cəhətdən çox effektiv olan yeni müalicə üsulu təkliif etdik (suda həll olan əsaslı məlhəm və lazer istifadəsi) və bunu elmi əsaslandırdıq. O dövrdə Azərbaycan təbəbəti dünya təbəbətindən xeyli geridə idi, Türkiyə ilə əlaqələr yeni başlayırdı və qardaş ölkə təbəbətin çox yüksək inkişaf etməsi iləseçilirdi. Həsəm müəllim ölkəmizdə qaraciyər cərrahiyyəsinin çox zəif olduğunu bildirdi və Türkiyəyə gedərək bu sahədə inkişaf etməyi mənə tövsiyə etdi. 1994-cü ildə Universitet və Səhiyyə Nazirliyinin rəhbərliyinin dəstəyi ilə qaraciyər cərrahiyyəsi, endoskopik və transplantoloji cərrahiyyə üzrə elmi təqdqiqat işləri aparmaq və praktik təcrübələrə yiyələnmək üçün Türkiyəyə getdim. Türkiyədə olduğum uzun illər ərzində Həsən müəllim mənə həm mənəvi, hətta maddi dəstəklər verdi. Türkiyədən döndükdən sonra Azərbaycanda ikinci laparoskopik mərkəzin kafedrada yradılmasına bö-



yük köməklik göstərdi. Həsən müəllimin rəhbərliyi ilə 1999-cu ildə doktorluq dissertasiyasını müdafiə etdim. Sonrakı dövrdə Mərkəzi Klinikada, Gömrük Hospitalında işləyərkən Həsən müəllim mənə həmişə arxa oldu, bu klinikaların yaradılması və inkişafında mənə çoxlu köməklər etdi. Mən professor seşildikdən sonra (2004) Həsən müəllim dəfələrlə kafedra müdiri olmağımı təklif etdi. Mən isə transplantasiya işini qurduqdan sonra bu vəzifəyə gələ biləcəyimi söyləyidrim. 2010-cu ildə Gömrük Hospitalında qaraciyər transplatasiyasına başladıqdan sonra bəhanəm qalmadı, lakin ondan yenə möhlət istəyirdim. Nəhayət, 2012-ci ildə əziz müəllimimin 80 illik yubileyindən sonra o, ciddi təkidlə kafedraya rəhbərlik etməyimi istədi və Universitet rəhbərliyindən bu təklifi qəbul etməyi xahiş etdi.

Mən Həsən müəllimin dəstək olduğu və yetişdirdiyi yuzlərlə həkimdən biriyəm və onun etdiyi yaxşılıqlardan cildlərlə yazılar yazmaq olar.





Həsən müəllimin Azərbaycan Cərrahiyyəsinin inkişafında böyük xidmətləri olmuşdur. İlk növbədə Azərbaycan Cərrahiyəsinin ən böyük məktəblərindən biri olan Finklşteyn –Mirqasımov -Mahmudbəyov –Məmmədov məktəbini layiqincə davam və inkişaf etdirdi. Hazırda Azərbaycan Tibb Universitetinin I-cərrahi xəstəliklər kafedrası əməkdaşlarının hamısı Həsən müəllimin yetirmələridir və onların hamısı elmi dərəcəyə yiyələnmişlər. Həsən müəllim Azərbaycanda elmi-praktik koloproktologiya məktəbi yaratdı və onu dünya səviyyəsinə çatdırdı. Hazırda kafedramızda bu sahədə yüksək elmi praktik səviyyəli mütəxəsssislər yetişmiş və fəaliyyətlərini davam etdirirlər (Prof. S.A. Əliyev, T.e.d. E.A. Əliyev, T.f.d. S.S. İmanova və b.). Onun rəhbərliyi və bilavasitə iştirakı ilə koloproktologiya və digər sahələr üzrə çoxsaylı monoqrafiyalar, elmi məqalələr, atlaslar, dərsliklər çap olundu. Müasir cərrahiyyənin ən aktual sahələrinin inkişafında da Həsən müəllimin böyük xidmətləri var. Ölkəmizdə ən böyük elmi praktik laparoskopiya məktəbi də Həsən müəllimin xeyir-duası ilə yarandı və inklişaf etdi. Bunula yanaşı qaraciyər cərrahiyyəsinin, transplantologiyanın yaranmasında, təşəkkülündə, hərbi-səhra cərrahiyyəsinin inkişafında Həsən müəllimin xidmətləri əvəzsizdir.

Həsən müəllim xoşbəxt adamdır: “yaxşı insan” kimi ən böyük adı qazandı, özündən sonra mükəmməl koloproktoloji, endoskopik, transplantoloji məktəbləri, ktablar, elmi əsərlər, Azərbaycan cərrahiyyəsini inkişaf etdirə biləcək və adını layiqincə doğruldacaq cərrahlar ordusu qoyub getdi. Həsən müəllimin səmimi övladları da onun yolunu inamla davam Professor H.A. Sul-

tanov həmkarları ilə etdirirlər. Professor Həsən Sultanov Azərbaycan Cərrahiyyəsi tarixində özünə böyük yer qazanmış müəllim, həkim, alim və ailə başçısı kimi tələbələrinin, övladlarının, yaxınlarının, onu tanıyanların və sevənlərin qəlbində həmişə yaşayacaqdır.

Allah rəhmət eləsin!

**NURU BAYRAMOV**

***AMEA müxbir üzvü, Azərbaycan Tibb Universitetinin I-cərrahi xəstəliklər kafedrasının müdiri***



## PROFESSOR SULTANOV HƏSƏN ABBAS OĞLU HAQQINDA (70 illik yubileyinə)

Həsən Abbas oğlu Sultanovun 2002-ci ilin may ayında 70 yaşı tamam olur. Həsən Sultanov orta məktəbi bitirdikdən sonra 1949-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş, 4 il oxuduqdan sonra təhsilini Kuybşev (indiki Samara) Tibb İnstitutunun hərbi-tibbi fakültəsində davam etdirmişdir. Hərbi fakültəni bitirərək Murmansk vilayətində hərbi həkim işlədikdən sonra vətənə qayıdaraq Tərtər və Bərdə rayonlarında sıravi həkim, şöbə müdiri və baş həkim vəzifələrində işləmişdir. Tutduğu vəzifələrdə həmişə vicdanla çalışmış, yerli əhalinin rəğbətini qazanmışdır. Həkim kimi işlədiyi dövrdə



mütəmadi surətdə elmi fəaliyyətlə məşğul olmuşdur. Təbabətin geniş sahəsi olan cərrahlığa xüsusi marağı 1972-ci ildə onu professor B.B. Mahmudbəyovun rəhbərlik etdiyi kafedraya gətirmişdir.

Namizədlik dissertasiyasının müdafiəsindən sonra kafedranın assistenti vəzifəsinə seçilmişdir. Elm və tədrisdə böyük həvəs, məsuliyyətlə işlədiyinə görə az sonra dosent vəzifəsinə seçilmiş, kafedranın tədris hissə müdiri təyin edilmişdir. Tədris işlərində təşkilatçılıq bacarığı nəzərə alınaraq Universitetin rəhbərliyi tərəfindən I-müalicə-profilaktika fakültəsinin dekanı vəzifəsinə namizədliyi irəli sürülmüş və həmin vəzifəyə seçilmişdir.

I-müalicə-profilaktika fakültəsinin dekanı vəzifəsində işləyərkən elmi və müalicə işlərinə az vaxtı qaldığı üçün öz xahişi ilə dekan vəzifəsindən istefa vermiş, daha çox elmi fəaliyyətlə məşğul olmağa başlamışdır.

H.A.Sultanov 200-dən artıq elmi məqalənin, 10-a yaxın monoqrafiya, dərslik, rəhbərlik, cərrahi xəstəliklərə aid irihəcmli dərs kitabının müəllifidir.

H.A. Sultanov müalicə sahəsində də çox böyük əmək sərf edir. O, həmişə ağır cərrahi əməliyyatlar yerinə yetririr. Bakı şəhərindən və respublikanın rayonlarından gəlmiş xəstələrə yüksək səviyyədə ixtisaslaşmış tibbi yardım göstərməkdə davam edir.

H.A.Sultanovun fəaliyyəti ilə maraqlanan hər kəsin diqqətini cəlb edən daha bir cəhətini xüsusi qeyd etmək lazımdır. Bu kadr hazirlığıdır. Kafedra müdiri işlədiyi müddətdə o, 13 nəfər elmlər namizədi və 4 elmlər doktoru hazırlamışdır. Onun kafedrasında müdafiə olunan elmi işlərin sayı böyük Elmi-tədqiqat institutlarından

heç də az deyil. Onun əsərləri və praktik fəaliyyəti tibb elminə, praktik səhiyyəyə böyük nailiyyətlər gətirir. Kafedrada çox geniş miqyasda və səviyyədə müalicə işi aparılır.

Nəhayət, qeyd etmək lazımdır ki, professor H.A. Sultanov ölkənin cərrahiyyə cəmiyyətinin işində fəal iştirak edir. H.A. Sultanov yeni diaqnostika və müalicə metodlarının kafedrada, klinik praktikada tətbiq olunmasını təşkil edir.

H.A. Sultanov Səhiyyə Nazirliyinin baş koloproktoloqudur. Bu sahədə ən ağır əməliyyatları şəxsən özü həyata keçirir.

**İSMAYIL MƏMMƏD oğlu MƏMMƏDOV**
***Əməkdar elm xadimi, Professor***



## ƏSL ZİYALI, ALİM VƏ MÜƏLLİM
## (70 illik yubileyinə)

Hər üç ad 70 yaşı tamam olan professor Həsən Sultanova çox yaraşır. Ona görə ki, onun insanlara münasibəti ziyalılıq nümunəsidir, işıqla doludur. Sanballı mütəxəssis, proktoloq-alim kimi seçilir və tanınır. Onunla həmkarlıq və dostluğumun 30 illik tarixi var. Elə olub ki, tez-tez görüşməmişik, ancaq hər görüşümüzdən isti və ürəkaçan təəssüratlar qalıb. Həsən müəllimin çalışdığı sahə, ondan həkim üçün vacib olan həlimlik, mülayimlik, qadınlara ana-bacı, ata münasibəti, kişilərə ciddi və yumşaq təbiətli alim-həkim münasibəti tələb edir. 10 il bundan öncə Türkiyədə Azərbaycan-Türkiyə Cərrahlarının Elmi Konfransında onun proktologiyanın vacib bir məsələsinə aid məruzəsi böyük maraq və

diqqətlə qarşılandı. Çünki məsələnin qoyuluşu kifayət qədər elmi, dinləyiciyə çatdırılması nəzakətli və səliqəli, özünü öyməkdən və gördüyü işi şişirtməkdən uzaq alim çıxışı idi. Mən inana bilmirəm ki, o, xəstələrinin, işçilərinin, tələbələrinin və müəllimlərinin hansısa birinin ürəyini sındırsın. Yazdıqları həvəslə oxunur, təmiz Azərbaycan türkcəsində çıxışları və mühazirələri maraqla dinlənilir. Ona görə onu tanıyanların həmişəlik dostuna və sevimlisinə çevrilir. Gənclərə münasibəti xeyirxah və yumşaqdır, müəllimlərin və həmkarlarının hörmətini saxlamağı bacarır. Tənqidi yumşaq və təvazökar olur. Tərifi səmimi və saxtalıqdan uzaqdır. Həsən müəllimlə danışanda bəzən gözləmədiyin halda onun millətinin ədəbiyyatını, şerini, musiqisini, sənətini sevdiyini, dərindən bildiyini görürsən və bu hisslərin ürəkdən gəldiyinə inanırsan. Bağışlamağı bacarır, yaxşılığı unutmur. Onunla həmkarlıq, dostluq, yoldaşlıq asandır, xoşdur və problemsizdir. Həsən müəllimin tələbəsi olan övladlarım onun haqqinda həmişə hörmətlə ağızdolusu danışırlar. Onlarla gənc alim və mütəxəssisin yetişməsində qərəzsiz və təmənnasız zəhməti olub. Əsərlərinin sayının artırmaqdan daha çox, məna yükünü ağırlaşdırmağa çalışır. Lovğalıqdan, gözə görünməyə çalışmaqdan uzaqdır. Həsən müəllimi qiymətləndirmək üçün onunla xəstə çarpayısı yanında, elmi yığıncaqlarda rastlaşıb, onu yenidən kəşf etmək gərək olur. Mən şadam ki, mənsub olduğum yaşlı nəsl həkim, müəllim və ziyalılar arasında onun kimi ürəkdən qəbul etdiyim və hər görüşümdən razı qaldığım həmkarım və həmfikirim var. O, respublikamızın sərhədlərindən uzaq bir çox elmi mərkəzlərdə çıxışları, beynəlxalq səviyyəli jurnallarda çap olunmuş məqalələri ilə xalqımızı ləyaqətlə təmsil etmişdir.

Həsən müəllimə həkimlik sənətində və Azərbaycan cərrahlığını müasir səviyyədə təmsil etməsi kimi müqəddəs işində uğurlar, uzun ömür və canağlığı arzulayıram!

**NÜRƏDDİN BAĞIR oğlu RZALI**
***Əməkdar elm xadimi, Tibb elmləri doktoru, Professor, Beynəlxalq Cərrahlar Cəmiyyətinin və Azərbaycan Yazıçılar İttifaqının üzvü***



## ÖMÜRLƏRƏ NUR ÇİLƏYƏN İNSAN
## (70 illik yubileyinə)

Ağıllı adam həmişə sənət və hünər əldə edib yaxşı ad-san qazanmağa çalışır. Bu, böyük zəhmət və iradənin, əziyyət və səyin nəticəsində əldə edilir.

Haqqında söhbət açmaq istədiyim belə əvəzsiz insan, yaxın dostum, dili ilə ürəyi arasında məsafə olmayan el ağsaqqalı, zəngin mənəvi dünyası və xeyirxahlığı ilə seçilən, gözəl və qayğıkeş insan, minlərlə ağır xəstəni həyata qaytaran səmimi dostum cərrah Həsən Abbas oğlu Sultanovdur.

Dünyada deyilmiş və deyiləsi bütün yaxşı sözlərin hamısını bu nəcib insana şamil etmək olar. Çünki ulu Tanrı ona ən gözəl keyfiyyətləri verərkən heç nəyi əsirgəməyib. Bu sadə Allah adamı, ilahi varlıq

təvazökarlığı, mehribanlığı, alicənablığı, cürəti və cəsarəti, sənətinə vurğunluğu ilə hər kəsə örnəkdir. Ustad cərrah həmkarıma səcdə qılmaq olar.

Həsən müəllim ürək dostlarını, qəlb yaxınlarını yüksək insani keyfiyyətləri, zəhmətsevərliyi və işgüzarlığı, həkimlik qabiliyyəti və təmənnasızlığı ilə tapmışdır.

O, elə bir cərrahdır ki, əməliyyat zamanı şəfa verdiyi xəstənin ağrı-acısını özündə hiss edir, gecə-gündüz həyəcanla yaşayır. Şəfa tapmaq ümidi ilə hər gün iş yerinə gələn, ağır iş saatlarından sonra evində ona dinclik verməyən, imdad diləyən xəstələrinə məsləhətləri ilə əvəzsiz dayaqdır Həsən müəllim.

Deyirlər həkimlik və müəllimlik ən müqəddəs peşələrdir. Bu iki müqəddəsliyi özündə birləşdirib Həsən müəllim. Həm dərin bilikli, daim öz üzərində çalışan, tələbələrinin hörmət və məhəbbətini qazanan müəllimlik, sənətinin incəliklərinə dərindən yiyələnən kamil həkimlik çulğalaşıb, cəmləşib bir ürəkdə - Həsən müəllimin ürəyində...

Böyük kafedraya rəhbərlik edən bu insan həm yüzlərlə tələbənin yetişməsində, həm də kafedranın elmi potensialının daim artmasında misilsiz fəaliyyət göstərir. Onun fəaliyyəti təkcə elmi-pedaqoji çərçivə ilə tamamlanmır; nəyə qadir olduğunu auditoriya qarşısında nümayiş etdirib, tələbələrin rəğbətini qazanan, onların sevimlisi olan, zərgər dəqiqliyi ilə işləyən sənətkar Həsən müəllim mürəkkəb cərrahiyyə əməliyyatlarının sirlərini öyrətməklə yanaşı, əsl həyat dərsləri verir.

Həsən müəllimi nümunəvi ailə başçısı, yaxşı ata, baba, bir sözlə, yüksək mənəvi keyfiyyətlərə malik, ba-

carıqlı, ləyaqətli, tayı-bərabəri olmayan böyük Insan kimi tanıyıram.

Mən yaxın dost kimi Həsən müəllimi 70 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir və arzu edirəm ki, neçə-neçə illər sonra da onun qızıl barmaqları xəstələrə şəfa versin.

**BƏYBALA XUDKAR oğlu ABASOV**
***Respublikanın əməkdar həkimi,***
***Tibb elmləri doktoru, Professor***



## MƏKTƏBİNƏ VƏ MÜƏLLİMİNƏ LAYİQ İNSAN, ALİM, CƏRRAH!
## (Anadan olmasının 70 illiyinə həsr olunur)

Əməkdar elm xadimi, şöhrətli alim, tanınmış, səriştəli cərrah, gözəl müəllim, sadə və təvazökar insan professor Həsən Abbas oğlu Sultanovu 50 ilə yaxındır ki, tanıyıram və onu özümə yaxın insan və dost sayıram.

Professor H.A. Sultanovun keçdiyi elmi-təcrübi məktəb Azərbaycanın görkəmli elm xadimi, tanınmış, istedadlı cərrahı, şöhrətli müəllimi, nurlu şəxsiyyət, Azərbaycanın Elmlər Akademiyasının ilk prezidenti, akademik Mirəsədulla Mirqasımova məxsusdur. Onun müəllimi isə gözəl insan, layiqli alim-mütəxəssis, istedadlı müəllim, səriştəli cərrah professor Böyükbəy Mahmudbəyov olmuşdur. Mən hər dəfə professor H.

Sultanovu görəndə ona “Məktəbinə və müəllimimə layiq insan” deyə müraciət etmək istəyirəm.

Mən də ilk əmək fəaliyyətinə 1957-ci ildə böyük alim, tanınmış ictimai xadim, akademik M. Mirqasımovun xeyir-duası ilə başlamışam, anesteziologiya üzrə ilk tələbə elmi işimi isə (“Potensə edilmiş efir narkozu fonunda hemodinamikanın dəyişməsi”, 1958-ci il) professor B.M. Mahmudbəyovun rəhbərliyi ilə yerinə yetirmişəm. Bununla həmişə fəxr edirəm.

Həsən bəyin şəxsi tarixcəsinə nəzər saldıqda onun xeyli zəngin olması və rəngarəngliyi diqqəti cəlb edir. Belə ki, 1955-ci ildə Rusiyanın Kuybışev şəhərində Hərbi Tibbi fakultəsini bitirən gənc Həsən 2 il hərbi hospitalda hərbi həkim kimi qulluq edir. Sonra Tərtər rayonunda kənd xəstəxanasında baş həkim işləyir, təhsilini artırmaq üçün 1961-ci ildə professor B.M. Mahmudbəyovun rəhbərlik etdiyi kafedrada (indi həmin kafedranın müdiri Həsən müəllimdir) kliniki ordinaturaya daxil olur, oranı bitirir. 1963-cü ildə Bərdə rayonuna qayıdır və rayon Mərkəzi xəstəxanasında cərrahlıq şöbəsinin müdiri təyin olunur, akademik M.M. Mirqasımov məktəbinin böyük ənənələrini rayon şəraitində müvəffəqiyyətlə tətbiq edir. Qısa zamanda Həsən bəy Sultanovun səriştəli, gözəl cərrah kimi şöhrəti bütün Qarabağa yayılır. Şöbə müdiri olarkən əsl səhiyyə təşkilatçısı kimi fərqlənir. Az sonra xəstəxananın baş həkimin müalicə işləri üzrə müavini və baş həkimi vəzifələrinə yüksəlir.

Yüksək vəzifə, şərəfli, sərbəst cərrahi fəaliyyət nə qədər maraqlı olsa da Həsən bəyin elmə olan böyük həvəsi 1972-ci ildə onu yenidən Məkkə bildiyi B.M. Mahmudbəyovun yanına gətirir və o kafedranın



assistenti vəzifəsinə seçilir. Mən və Həsən bəyi yaxşı tanıyanlar bilirdi ki, o elə ilk gündən bu məktəbin rəhbəri, gözəl insan, istedadlı alim, professor B.M. Mahmudbəyovun layiqli davamçısı olacaq. Addım-addım irəliləyib inkişaf edən Həsən bəy kafedranın dosenti, sonra professoru seçilir və şərəfli yolda qətiyyətlə addımlayır.

1991-ci ildə tanınmış alim, cərrah, gözəl müəllim, dəyərli və alicənab insan, Leninqrad cərrahlıq məktəbinin yetirməsi professor İ.M. Məmmədovdan Tibb Universitetinin I- cərrahi xəstəliklər kafedrasının müdiri estafetini qəbul edən Həsən bəy bu işi şərəflə yerinə yetirir.

1990-cı illərin əvvəllərində I-müalicə-profilaktika fakültəsinin dekanı vəzifəsində işləmiş professor H.A. Sultanov bu məsuliyyətli, ağır işdə də özünəməxsus yüksək insani, elmi-təcrübi və təşkilatçalaq keyfiyyətləri ilə seçilərək Universitetimizin müəllim-tələbə kollektivinin hörmət və istəyini qazanır.

Çoxsaylı elmi məqalə, dərslik və monoqrafiya nəşr etdirmiş məhsuldar alim, müəllim və cərrah kimi fəaliyyət göstərən dostum, qardaşım professor H.A. Sultanovu ömrünün bu müdrik zirvəsində səmimi qəlbdən təbrik edir, ona cansağlığı, uzun ömür, həyatda, elmi-pedaqoji fəaliyyətində və ailəsində daha böyük uğurlar qazanmasını arzulayıram!

**ABBAS AXUNBƏYLİ**
***Əməkdar elm xadimi, Professor***



## PROFESSOR H.A.SULTANOVUN 70 İLLİK YUBİLEYİNƏ

Təntənəli və sevindirici haldır ki, dostlar, həmkarlar, tibb işçiləri 2002-ci ilin may ayında Azərbaycan xalqının qiymətli oğlu, əməkdar elm xadimi, Azərbaycan Tibb Universitetinin I-cərrahi xəstəliklər kafedrasının müdiri əməkar elm xadimi, professor H.A. Sultanovun 70 yaşını qeyd edirlər. H.A. Sultanovun tərcümeyi-halına nəzər salsaq onun sıravi həkimlikdən elmin zirvəsinə qədər keçdiyi böyük, çətin, şərəfli, ağır həyat yolunu və məşhur Holland həkimi Nicolas Van Qulpun "Başqalarına işıq salarkən, özüm yanıram" sözlərini özünə deviz seçdiyini görmək olar. Həkimlik sənətini seçməklə o, özünü bütünlüklə həkimliyə vermişdir. Xoşbəxtliyini yalnız həkimlikdə görür. Öz sənətini dərindən sevməklə yanaşı,



sənəitinə çox sadiqdir və hər saat, hər dəqiqə cəmiyyət üçün lazımlı olduğunu, əməyinin insanlara xeyir verdiyini hiss edir. O, öz ürəyinin səsinə qulaq verən həkimdir, Kassirskinin sözləri ilə desək: "Həkimlik yoluna qədəm qoymuş hər adam yüksək mənəvi-etik xüsusiyyətlərə malik şəxs olmalıdır".

Sadalandığım bütün xüsusiyyətlərə və həkimlik istedadına malik olan H.A. Sultanov xalqa xidməti, insanların sağlamlığının qorunması və bərpası kimi müqəddəs işi hər şeydən üstün tutur. Görkəmli həkim, filosof Hippokrat demişdir: "Həkim xəstənin həyatını xilas etmək, sağlamlığını qorumaq və ya son anda əzablarını yüngülləşdirmək üçün hər şey etməlidir". Professor Sultanov H.A. Azərbaycan təbabət tarixinin elə bir həkimlik kateqoriyasına aiddir ki, məhəbbət və hörmət, fəxri və yüksək adı ilə yalnız xəstələr arasında deyil, əhalinin digər təbəqələri arasında da tanınır.

Professor H.A.Sultanovun şəxsiyyətini xarakterizə edib, onun dərinlklərinə varmaq üçün görkəmli şəxsiyyətlərin söylədiklərinə diqqət yetirmək yerinə düşərdi: "Yaxşı həkim yalnız yaxşı insan ola bilər" (German Potniqel). "Həkimlik sənəti- özünü qurban verməyi, təmiz qəlb, təmiz hərəkət tələb edən bir qəhrəmanlıqdır. Hər adam bu xüsusiyyətlərin daşıyıcısı ola bilməz".

Professor Sultanov H.A. xeyirxahlığı, mehribanlığı və açıq ürəkliyi ilə seçilir. Bu xüsusiyyətlər bir çoxlarında olmur. 70 illik yubileyi münasibəti onu ilə təbrik edir, ona ürəkdən uzun və məhsuldar həyat arzu edirəm!

**İBADULLA AĞAYEV**
***Tibb elmləri doktoru, Professor***



## ÖMRÜMÜN ƏN ÇƏTİN YAZISI

... acizəm. Bu böyük insan haqqında söz deməyə, çətinliklə ərsəyə gələn cümlələri ard-arda düzməyə taqətim, cəsarətim çatmır. Xatirə yazmağı xahiş edirsən, əziz dostum! Axı kövrək, həzin bir gizilti, dayanmayan göz yaşlarım qəlbimi göynədir, sinəmi dağlayır. İnana bilməzdim ki, bir gün gələcək, bu qədər erkən gələcək və mən atam haqqında xatirə yazacağam. Atam ziyalı ailəsində doğulmuşdur. Ailənin ikinci övladı idi. Ailəsi işğalçı sovet rejiminin, erməni vəhşiliyinin yüz minlərlə qurbanlarından idi, qərbi Azərbycanın Dərələyəz mahalından zorla köç edilmişdi. Uşaqlıqdan həyatın hər cür məhrümiyyətlərli ilə üz-üzə qalmış, onlara cəsarətlə sinə gərmişdi. Bu səbəbdən çox tez böyümüşdü. Atası kimi el ağsaqqalı oldi. O, gözəl ailə başçısı, qayğıkeş



ata, sevimli qaynata, olduqca mehriban baba, alicənab insan idi. Hərdən düşünürəm ki, gecə-gündüz sağlamlığı, ömrü bahasına şəfa verdiyi, həyata qaytardığı xəstələrə, yol göstərdiyi tələbələrinə, yetişdirmələrinə, çoxsaylı davamçılarına atalıq qayğısı göstərən bu böyük insan bu qədər gücü, qüvvəni, sevgini haradan alırmış? Öz peşəsini, xalqını, torpağını, Vətənini ürəkdən sevən, tələbələrini övladları hesab edən şəxs təbii ki, yorulmaq bilməzdi. 3 övlad böyütdü, həyatın enişli-yoxuşlu yollarında mətin addımlamağı öyrətdi onlara. Onların həm atası, həm də həyat müəllimi oldu. Həyat yolumuzda yandırdığı işıq ömrümüz boyu yollarımıza şəfəq salacaq, heç zaman sönməyəcək. Atam haqqında söhbət düşdükcə hər kəs "Heyf o insandan" – deyir. Ata! Yoxluğun da varlığın qədər əzizdir, unudulmazdır. Sən cismani aramızda yoxsan, mənə, ruhən həmişə yaşayacaqsan. Arzuların, diləklərin gerçəkləşəcək. Əməllərin yaşayacaq. Sözün yaşayacaq. Elmi əsərlərin, kitabların yaşayacaq.Təki ruhun şad olsun!!! Allah sənə rəhmət eləsin!!!

**Qızın SƏADƏT SULTANOVA**



# ADI ÜRƏKLƏRDƏ HƏKK OLUNMUŞ İNSAN

Həsən Sultanovu 1991-ci ildən tanıyırdım. İlk görüşümü indiyədək xatırlayıram. Moskvadan yenicə Vətənə dönmüşdüm, kafedra müdiri ilə görüşməli idim. İlk görüşdən xoş münasibətlərimiz yarandı. Sanki məni gözləyirmiş, sanki məni tanıyırmış… Belə isti qarşılanmağım, cərrahi xəstəliklər kafedrasının mehriban kollektivi məni daha ürəkli işləməyə və çalışmağa həvəsləndirdi. Həsən müəllim mənim iş və elmi çalışmalarımda dəstəyini əsirgəmədi. Onunla çiyin-çiyinə çalışmaq, elmi müzakirələr aparmaq məni hər zaman məmnun edirdi. Professor bacarıqlı kafedra müdiri, müəllim, cərrah, gözəl həmsöhbət idi. O, gənclərin dostu, yol göstərəni və məharətli müəllim idi.



Həsən müəllim işlədiyi müddətdə elə möhkəm bünövrəli kafedra qurmuşdur ki, həmin kollektiv həmişə köhnə adət-ənənlərə sadiqdir. Yadımdadır, kollektiv əməkdaşlarından birinin doğum gününə yığışmışdıq. Tədbir çox əyləncəli və maraqlı keçirdi. Həsən müəllim hamı kimi əyləndi, rəqs etdi, deyib-güldü. Sonda qeyd etdi ki, belə yığıncaqları davamlı etmək lazımdır, çünki kollektiv məhz belə toplantılarda mehribanlaşır, daha da səmimiyyət yaranır. Bəli, bu ənənə kollektivimizdə hazırda saxlanılmış, onun fikirləri bütün əməkdaşlar üçün dəyərindən düşməmişdir.

Onun cərrahiyyə tarixində əvəzolunmaz rolunu qeyd etmək istərdim. Həsən Sulatnovun yetişdirdiyi tələbələr, elmlər namizədləri, dosentlər və professorlar hazırda öz ustadları ilə fəxr edir, qürur duyurlar. Milli kadrların yetişməsində, proktologiya sahəsinin inkişafında, ATU-nin cərrahi kafedrasında pedaqoji, elmi və təcrubi işlərin qurulmasında Həsən müəllimin xüsusi əməyi olmuşdur. Çünki o, özünəməxsus məktəb yaratmışdır.

20 ildən artıq tanışlığımız, dostluğumuz müddətində onun qayğıkeş, təvazökar, səmimi, istiqanlı, mədəni, sənətinin vurğunu, eyni zamanda, gözəl ailə başçısı kimi gördüm.

Həsən müəllim təəssüf ki, indi aramızda yoxdur. Yaddaşlarımızda qalan onun haqqındakı xoş xatirələr və duyğulardır. Həyatının sonuna qədər işinə, sənətinə bağlılıq onu tərk etmədi. O, şərəfli ömür sürdü. Şöhrət, uğur dalınca qaçmadı, onun həyatı mənalı oldu.

Həsən müəllim Azərbaycan cərrahiyyə tarixində elə bir təkrarolunmaz iz buraxdı ki, onu tanıyan, onun-

la işləyən, ondan dərs alan tələbələr, kafedranın əməkdaşları, həyata yenidən qayıdan saysız-hesabsız xəstələr onu unutmayacaq! O, daim xatirələrdə yaşayacaqdır! Onun sadəliyi, alicənablığı və insanlığı qarşısında baş əyir, Allahdan sizə rəhmət diləyirəm!

**SÜRƏDDİN ZEYNALOV**
***I-cərrahi xəstəliklər kafedrasının professoru***



## SƏDAQƏTLİ DOST, ETİBARLI CƏRRAH, ƏSİL MÜƏLLIM, AĞSAQQAL ALİM, MÜDRİK ZİYALI

Professor Həsən Siltanovla mənim tanışlığım 1974-cü ildən başlayır. Həmin il Leninqrad şəhərindən aspiranturanı bitirdikdən sonra müsabiqə yolu ilə Azərbaycan Tibb Universitetinin uşaq cərrahlığı kafedrasına assistent seçildim. Cərrahi xəstəliklər və uşaq cərrahlığı kafedraları o vaxtlar M. Nağıyev adına KTTYX-nın II mərtəbəsində yerləşirdi. Mən Həsən müəllimlə hər gün səhər konfranslarında görüşər və fikir mübadiləsi aparıadım. Elə tanışlığımızın ilk günlərindən Həsən müəllimin səmimiliyi, xeyirxahlığı, sadəliyi diqqətimi cəlb etdi. Sonrakı illərdə o, uzun illər çalışdığı, həm həkim, həm də alim kimi formalaşdığı cərrahi

xəstəliklər kafedrasına, mən isə uşaq cərrahlığı kafedrasına müdir seçildik. Bu illərdə bizim dostluğumuz daha da dərinləşdi.

Həsən müəllm uzun illər Tərtər və Bərdə rayonlarında şöbə müdiri və baş həkim işlədiyi üçün həmin rayonların, bütün Qarabağın camaatı onu savadlı həkim, xeyirxah insan kimi tanıyır, "Bizim Həsən" adlandırırdılar. O, gözəl cərrah, alim olmaqla bərabər çox xeyirxah insandır. Həmişə bilik və bacarığını təmənnasız olaraq gənc həkim kadrlarının yetişməsinə həsr etmişdir. Ona görə də çoxminli Universitetimizin, xəstəxanamızın bütün kollektivinin sevimlisi olmuşdur.

Həsən müəllm ümumi cərrahiyyə ilə məşğul olsa da onun elmi-praktik işinin əsas istiqamətinə, cərrahiyyənin ən aktual və çətin sahələrindən birinə – koloproktologiya böyük diqqət ayırmışdır. Bu sahədə respublikamızda tanınmış, aparıcı mütəxəssisi kimi, Səhiyyə Nazirliyinin baş koloproktoloqu kimi, ölkə hüdudlarından kənarda da tanınmış koloproktoloji məktəbini yaradıcısı kimi səhiyyəmizin və cərrahiyyə elmimizin inkişafına böyük töhfələr vermişdir. Əminəm ki, dünyasını yaxın günlərdə dəyişmiş müdrik alimin istedadlı tələbələri başda gənc alim, Milli Elmlər Akademiyasının müxbir üzvü, Tibb elmləri doktoru, Professor Nuru Bayramov olmaqla onun ideyalarını, xoşməramlı əməllərini həmişə yaşadacaq, yolunu uğurla davam etdirəcəklər. Allah sənə rəhmət etsin, əziz dostum! Arxayın yat!

**ÇİNGİZ BAYRAM oğlu QULİYEV**
***Uşaq cərrahlığı kafedrasının professoru***
***Tibb elmləri doktoru***



## HƏKİM ADINI UCALDAN İNSAN

Elə insanlar var ki, onlar təmsil etdikləri məsləyi onu tanıyan bütün insanların gözündə ucaldır, gənclərə bu məsləyi sevmək və seçmək üçün stimul mənbəyi olur. Həkim sənətinin kifayət qədər ağır, məşəqqətli olduğu, bəzi günlərdə bu sənəti seçdiyin üçün peşmançılıq hissinin yaşandığı başqalarının ağrısı, acısını duymaq hissini itirməyən bütün həkimlər tərəfindən bilinən bir gerçəkdir. Amma digər bir gerçək də var ki, insanların ağır günlərində onların yanında olmaq, ən ümidsiz məqamlarda belə xəstələrin qəlbində ümid çırağı yandıra bilmək fikrimcə, bu sənətin müqəddəs adlandırılmasının əsas səbəbidir.

Professor Həsən Sultanov həkim və müəllim adını bu sözlərin daşıdığı əsil mənaya yüksəldə bilən bö-

yük şəxsiyyətlərdən idi. Həsən müəllimi o dövrdəki adı ilə tibb institutunun V kursunda oxuyarkən tanıdım. Bizim qrup müəlimimiz deyildi, lakin onun bir neçə mühazirəsinə qulaq asmaq bizə nəsib oldu. Professor Böyükbəy Mahmudbəyov, professor İsmayıl Məmmədov kimi nüfuzlu alimlərlə eyni sinif otaqlarını, eyni əməliyyat otaqlarını paylaşmaq çox çətin iş idi. Lakin Həsən müəllim dövrünün bu nüfuzlu alimlərinin kölgəsində qalmırdı, sadəliyi, təvazökarlığı, mehribanlığı ilə biz tələbələrə çox yaxın olduğunu hiss etdirirdi.

Onun haqqında 1981–ci ilə aid kiçik bir xatirəni paylaşmaq istəyirəm. Yataqxanada bizimlə qalan məndən bir kurs aşağı tələbə dostum xəstələnmişdi. Yataqxanada məsləhətləşmə apardıq. Ümumi fikir belə oldu ki, həkim kimi ən çox etibar edəcəyimiz insan Həsən müəllimdir. Birlikdə Həsən müəllimin yanına getdik. Bizi o qədər səmimi qarşıladı ki, bir neçə dəqiqə sonra bizim onunla yeni tanış olduğumuzu unutduq, onu Bakı şəhərində özümüzə ən doğma insan kimi qəbul etdik. Tələbə dostum valideynlərini təcili Bakıya dəvət edib-etməməyi Həsən müəllimlə məsləhətləşdi. Həsən müəllim tam səmimiyyətlə onları narahat etmə, biz də sizin valideynlərinizik - deyə cavab verdi və əməliyyat gününü təyin etdi. Tələbə dostuma əməliyyat günü və ondan sonrakı günlərdə göstərdiyi diqqət doğrudan həkimlik borcundan çox əsil ata qayğısı idi. Dostumuzu evə göndərərkən Həsən müəllim tablet formasında çox da baha olmayan antibiotik yazdı və məndən dərmanı almağa pulumun olub-olmadığımı soruşdu. Mən təqaüdü yeni aldığımı dedim. Onda gücün çatar deyib, bizi yola saldı. Mən bu cümlələrdəki fikirlərimi həmin həkim dostumla paylaşmasam da, əminəm ki, o bunlardan daha çoxunu söyləmək istərdi.



Tələbə dostum tətildən geri dönərkən professor üçün kiçik bir sovqat gətirmişdi. Biz çətinliklə Həsən müəllimin ev ünvanını öyrənib ora yollandıq. Açığı biz qapıdaca təşəkkür edib, sovqatı verib geri dönməyi düşünmüşdük. Lakin Həsən müəllim təəcüblənsə də sovqat üçün bizi qınasa da bizi səxavət və təkidlə evə dəvət etdi. Biz onun bir ata kimi ərklə təklifini geri çevirə bilmədik və qısa müddət sonra özümüzü onun ailəsinin isti mühitində çox rahat hiss etdik. Yadımdadır ki, həmin axşam institutun radiologiya kafedrasının dosenti Məmməd müəllim də ailəsi ilə Həsən müəllimgilə qonaq gəlmişdilər (səhv etmirəmsə onların qohumluq əlaqələri var idi). Onlar gənc həkimlərin qarşılaşdıqları çətinliklərdən, təhsildəki problemlərdən danışırdılar və arabir bizdən bu barədə fikirlərimizi soruşurdular. İndi xatırladıqca anlayıram ki, onlar öz təbiətləri, sadəlikləri, təvazökarlıqları ilə bizə nümunə göstərirdilər, qapına gəlmiş gözlənilməyən qonağı necə qarşılayıb-yola salmaq lazım olduğunu da bizə öyrədirdilər.

Həsən müəllim o nadir insanlardan idi ki, onun üçün zamanın fərqi yox idi. O ilin bütün günlərinin, günün bütün saatlarının həkimi və müəllimi idi. Əminəm ki, Həsən müəllimin nurlu xatirəsi onun elmi əsərlərində, kitablarında və onun çoxsaylı tələbələrinin elmi praktik fəaliyyətində uzun illər yaşayacaqdır. Allah rəhmət eləsin!!!

**AKİF MƏMMƏDOĞLU**
***Tibb elmləri doktoru, Professor***



## ŞƏRƏFLİ ALİM ÖMRÜ

Azərbaycan səhiyyəsinə ağır itki üz vermişdir. Görkəmli alim-cərrah, pedaqoq, əməkdar elm xadimi, səhiyyəmizin qocaman və nüfuzlu nümayəndələrindən biri Həsən Abbas oğlu Sultanov 82 yaşında haqq dünyasına qovuşdu. Böyük alim, cəfakeş tədqiqatçı, nüfuzlu pedaqoqun alovlu ürəyi dayanmış, qələmi əbədi sükuta dalmışdır. Həsən müəllimin ölümü hamımız üçün böyük itki oldu. Ən çox itirən isə Azərbaycan tibb elmi oldu. Təəssüf edirəm ki, Həsənlə bağlı yazdıqlarımı özü bilməyəcək. Artıq Həsən Sultanovun ömrü xatirələrdə və düşüncələrdə davam edir. Ömrünə alim ömrü qatmış görkəmli alim bu adı şərəflə daşıdı. İnsan, sənətkar, alim və vətəndaş kimi o, missiyasını ləyaqətlə yerinə yetirdi və dünyadan köçdü. Həsən müəllimin yoxluğunu daim hiss edəcəyik.

Həsən Sultanov haqqında söz demək mənim üçün çox asandır. Öncə ona görə ki, uzun illər yaxından ünsiyyətdə olduğum, ülfət bağladığım, şəxsiyyətinə dərin hörmət bəslədiyim bu insan haqqında düşüncələrimi bölüşmək üçün niyə çətinlik çəkməliyəm? İkincisi, həyatda həmişə gözü, könlü rahat insanlar zənnimcə, Allahın inayət etdiyi mənən təmiz adamlardır. Həsən Sultanov belə işıqlı şəxsiyyət idi. Və onun haqqında danışmaq, yazmaq üçün nə qədər istəsən mətləb vardır. Bu bir həqiqətdir ki, istər həkim, istər müəllim və istərsə də digər peşə sahibi olsun- insan yüksək keyfiyyətlərə malikdirsə, qəlbində yalnız bir niyyət -insanlara münasibətdə təmənnasızlıq və xeyirxahlıq cəmləşibsə, o əsil peşəkar mütəxəssis olar. Mən Həsən müəllimlə Tibb Universitetinə eyni ildə daxil olmuşam. Uzun illər birlikdə çalışmışıq. O, mənim lap köhnə dostum idi. Doğma qardaş tək məhrəm və simsar idik. Qəlbimizdə bir-birimizə dərin məhəbbət hissi var idi. Həsən müəllimin yüksək ünsiyyət mədəniyyətinə malik olması onun istər çalışdığı kollektivdə, istərsə də tələbələr arasında sevilməsinin əsas səbəblərindəndir. Həsən Sultanov yüksək səviyyəli alim və pedaqoq olmaqla yanaşı, həmçinin vətənpərvər, qayğıkeş, səmimi və mehriban dost idi. Uzun illər ərzində o, tibb sahəsi üçün minlərlə mütəxəssisin hazırlanmasında yorulmadan çalışmış, yüzlərlə elmi məqalələr, tədqiqat əsərləri, dərs vəsaitləri, dərsliklər və metodik tövsiyələr dərc etdirmişdir. Onun cərrahiyyəyə, xüsusən proktologiyaya aid yazdığı dərsliklər, monoqrafiyalar və məqalələr yüksək elmi-nəzəri əhəmiyyəti ilə seçilir. O, titanik fəaliyyəti nəticəsində koloproktoloji cərrahiyyədə görülməyən, öyrənilməyən bir çox işlərin öhdəsindən layiqincə gəlmişdir.

Həsən müəllimin elmi əsərləri qiymətli mənbələrdir. O, proktologiyanın təşəkkülünü və tədrisini işığa yönəldən əsil alim-pedaqoq olmuşdur.

Şərəfli alim ömrü yaşamış Həsən müəllimin elmi əsərləri hələ neçə-neçə nəsli düşündürəcək və neçə-neçə nəsil bundan bəhrələnəcəkdir. O, elmə qiymət verən, obyektivliyi sevən insan idi. Ziyalılıq və xeyirxahlıq onun ömür və könül missiyası idi. Vəfalı, təmənnasız və sağlam əqidəli, yüksək mənəviyyatlı, sədaqətli dost kimi özünü tanıtdı, gözəl ailə başçısı, əxlaqi və etik normaların yüksək zirvəsində dayanan parlaq şəxsiyyət kimi xüsusi hörmət qazandı. Bu böyük şəxsiyyətdə mən etibar, müdriklik, ucalıq, əyilməzlik, saflıq və vüqar gördüm. Vaxtı ilə dahi Nizami Gəncəviyə bir nəfərin verdiyi "Ayın işığı, gülün ətri var, bəs insanın nəyi var?" sualına şairin cavabı belə olub: "Ulu əcdadlarımızın yenilməz insanlığı və tükənməz xeyirxahlığı bizlərə bəxş edilən ən dəyərli həyat töhfəsidir." Həsən müəllim kimi şəxsiyyətlər tükənməz xeyirxahlığı məhz ulu əcdadlarımızdan, babalarımızdan alıb.

Həsən müəllimə xas olan səmimi münasibəti, xoş və mülayim rəftarı, tələbələrinə və həmkarlarına olan xüsusi qayğını, eyni zamanda özünəməxsus tələbkarlığı və prinsipiallığı böyük hörmətlə xatırlamağı özümə borc bilirəm. O, mənən təmiz, haqqa və ədalətə tapınan insan idi. Qurani-Kərimdəki "Allah bütün bəndələrə mərhəmətlidir, onlara rəhmi gəlir, lakin ləyaqətliləri mükafatlandırır" ibarəsi sanki onun kimilərə şamil edilir. Çünki bu müdrik insan bütün işlərini layiqli gördü və ləyaqətin uca zirvəsinə qalxdı. Həsən müəllim həmişə çalışırdı ki, insanlara yaxşılıq etsin, kiməsə etdiyi yaxşılığı büruzə verdirmirdi, elədiyi

xeyirxahlıqdan sevinc duyardı. O, neçə-neçə kitablara sığacaq alim, insan, ata, baba ömrü yaşadı. Həsən müəllim mənim üçün hər şeydən əvvəl, Azərbaycanın mötəbər ziyalısı, görkəmli alimi, işıqlı insanı idi. Onunla görüşlərimizin, söhbətlərimizin hər dəqiqəsi maraqlı idi. Əslindən-kökündən gələn inancıl insan, ağayana, mərd, vətənpərvər şəxs idi. Fundamental tədqiqat əsərlərin müəllifi olan bu görkəmli alim sadəliyi, təvazökarlığı ilə çoxlarına nümunə idi.

Unudulmaz dost, xeyirxah insan olan Həsən Sultanovun doğma siması onun minlərlə tələbəsinin qəlbində yaşayacaq, adı Azərbaycanın görkəmli tibb alimləri və pedaqoqları sırasında həmişə xatırlanacaqdır. Onun yoxluğu mənim üçün böyük itkidir. Belə insanlar bir evdən yox, bir eldən gedir. O, cismən aramızda olmasa da əməlləri, elmi əsərləri, ali insani keyfiyyətləri ilə qəlblərdə yaşayır. Həsən müəllim alicənab, xeyirxah , dostluqda sədaqətli, xalqını dərin məhəbbətlə sevən bir ziyalı ömrü yaşadı. Azərbaycan ziyalılığının "Qızıl fondu"na düşmüş bir şəxsiyyət oldu. Həsən Sultanovdan Azərbaycan elminə və onu sevənlərə dəyərli əsərləri, Həsən müəllim şəxsiyyəti, Həsən müəllim vüqarı, Həsən müəllim ləyaqəti yadigar və nümunə qaldı.

Allah sənə rəhmət eləsin, Həsən müəllim!!!

Ruhun şad olsun, əziz dostum.

*Yeriniz həmişə görünəcək.*

*Həsən Sultanov qüdrətli sənətkar idi.*

*Həsən Sultanov qayğıkeş ata idi.*

*Həsən Sultanov gözəl baba idi.*

*Həsən Sultanov sədaqətli dost idi.*

*Səni sevənlər qüdrətli sənətkar itirdilər.*
*Övladları qayğıkeş ata itirdilər.*
*Nəvələri gözəl baba itirdilər.*
*Mən də vəfalı dost itirmişəm.*
*Allah ona rəhmət eləsin!!!*

**HACI ÜZEYİR MƏMMƏDOV**

***ATU-nin travmatologiya və ortopediya kafedrası-nın Dosenti***



## HƏKİM, ALİM VƏ BÖYÜK İNSAN

İnsanın şəxsi keyfiyyətlərini təyin edən meyarlar çoxdur və onların qiymətləndirilməsi bəzən şərti (subyektiv) xarakter daşıyır. Şübhəsiz ki, mənfi və müsbət keyfiyyətlər arasında mütləq (dürüst) mütənasiblik tapmaq mümkün deyil. Çünki yalnız eyni keyfiyyətlərə malik insan yoxdur, yəni bütün müsbət şəxsi keyfiyyətləri özündə əks etdirən və mənfi keyfiyyətləri olmayan (və əksinə) insan yoxdur. Bununla əlaqədar dahi Avstriya bəstəkarı V.A. Motsartın şəxsiyyət haqqında fikri çox maraqlıdır: «Elə bir insan yoxdur ki, ona hamı eyni dərəcədə əziz olsun, bu – insan təbiətinə ziddir»… Böyük rus yazıçısı L.N. Tolstoy insanın şəxsi keyfiyyətləri içərisində sadəliyi əsas meyar kimi qiymətləndirmişdir. Onun fikirlərinə görə «Sadəlik mənəvi gözəlliyin əsas

şərtidir»… «Güclü insanlar həmişə sadədirlər»… «Böyük insanın qiymətləndirilməsini kəsrlə ifadə etmək olar: bu zaman kəsrin surətini insanın özü, məxrəcini isə həmin insanın özü haqqında fikri təşkil edir»… Şəxsi keyfiyyətlər intellektual səviyyə ilə təyin olunmur. Bəlkə də əksinə, insan zəkası nə qədər yüksək olursa, onun şəxsi keyfiyyətləri də o qədər ziddiyyətli olur. Dahiliyi təyin edən meyarlar isə heç də birmənalı müsbət keyfiyyətlər deyil. Dahilərin əksəriyyətində mənfi şəxsi keyfiyyətlər azlıq təşkil etmir. Beləliklə, insanın şəxsi keyfiyyətləri labirintində kontrast heç də təəccüb və ya təəssüf doğurmamalıdır, əksinə zəruri hesab edilməlidir. Bu «qeyri-adilik» görkəmli insanların şəxsi keyfiyyətini səciyyələndirən meyarlardandır. Lakin çox nadir insanlara rast gəlmək olur ki, onların şəxsi keyfiyyətləri sanki müsbət (xoş) arzu aurası ilə formalaşır. Mən tərəddüd etmədən bizim hamımızın sevimli müəllimimiz, milli elmi cərrahiyyənin patriarxlarından biri hesab edilən, bu günlərdə aramızdan getmiş professor H.A. Sultanovu bu insanlara aid edirəm.

Həsən müəllimi 36 ildir ki, tanıyıram. Bu müddət ərzində o, kafedra müdiri, əməkdar elm xadimi səviyyəsinə qədər yüksəlmiş, çoxlu elmlər namizədi və elmlər doktorları hazırlamışdır. Həsən müəllimi səciyyələndirən xüsusiyyətləri - sadəliyi, təvazökarlığı, alicənablığı, xeyirxahlığı həmişə hiss etmişəm. Onun xeyirxahlıq «missiyası» bəzən «hamilik» dərəcəsinədək «yüksəlir». Tam əminliklə deyə bilərəm ki, Həsən müəllimin həyat fəlsəfəsi xeyirxahlıqdan ibarətdir. Onun obyektivliyi isə bəzən liberallıq dərəcəsinə çatır. Həsən müəllimi səciyyələndirən əsas (bəlkə də təkrar olunmaz) keyfiyyətlərindən sadəlik və təvazökarlıq

xüsusi ilə diqqəti cəlb edir. Hamıya kömək etmək arzusu və məqsədi həmişə onda hiss olunmuşdur. Hətta yaxın perspektivdə real olmayan bir məsələ ilə əlaqədar Həsən müəllimlə söhbətdən sonra adamda böyük təsəlli və işıqlı ümid yaranardı. Vaxtı ilə böyük rus psixiatrı V.M. Bexterevin: «Əgər həkimlə söhbətdən sonra xəstə özünü yaxşı hiss etmirsə, onda o, həkim deyil» dediklərində «həkim» sözünü «insan» sözü ilə əvəz edərək, deyilənləri Həsən müəllimə şamil etsək, güman edirəm ki, yanılmarıq.

Həsən müəllim rəhbər işçiyə xas olmayan keyfiyyətləri ilə seçilmişdir: o, heç zaman öz müdirliyini heç kimə hiss etdirməmişdir. Ona «hakimlik», «liderlik» hissləri yad idi. O, heç vaxt, adətən müdirə «xas olan» inzibati–amirlik idarətetmə üsullarından istifadə etməmişdir. Bü keyfiyyətlər Həsən müəllimin təkrarolunmaz, qeyri-adi sadəliyi və alicənablığı ilə izah olunur. Uzun illər rəhbərlik etdiyi kollektiv onun köməyi və qayğısı nəticəsində formalaşmış, hazırda böyük elmi-praktik potensiala malik cərrah-alim nəslini təmsil edir. Həsən müəllimin hazırladığı çoxsaylı həkim-cərrah «ordusu», BÖYÜK MÜƏLLİMİN elmi-praktik məktəbini davam etdirməklə, həmişə ONA borclu olmaqları ilə fəxr edəcəkdir. Allah ona rəhmət etsin!!!

**SADAY ƏLİYEV**
***I-cərrahi xəstəliklər kafedrasının professoru***



# YARIM ƏSRLİK DOSTLUQ

Professor Sultanov Həsən Abbas oğlunu 50 ildir tanıyıram. 1962-ci ildə gənc Həsən Tibb İnstitutunun Hospital cərrahlıq kafedrasında ordinator vəzifəsində işləyirdi, mən isə institutun III kursunda oxuyurdum. O vaxtlar biz tələbələr dərsdən sonra müəyyən günlərdə Semaşko adına xəstəxananın cərrahlıq korpusuna növbələrə gedir, xəstələrin qəbulunda iştirak edir, cərrahiyyə əməliyyatlarına baxırdıq. Bu növbələrdən birində Həsən müəllimlə tanış oldum və onun icra etdiyi əməliyyatlarda assistentlik etməyə başladım. Xəstələrin qəbulu, diaqnostika üsulları, ilk həkim yardımının göstərilməsi, cərrahi əməliyyata hazırlanma qaydalarını öyrənirdim. Onun ilk cərrahlıq müəllimlərimdən biri olmasından həmişə qürur duymuşam.

Həsən müəllim kliniki ordinaturanı bitirib Bərdə rayonunda müstəqil işə getdi. Mən isə institutu bitirdikdən sonra Elmi-tədqiqat institutunda əmək fəaliyyətinə başladım. 30 ildən artıq müddətdə yollarımızın ayrılmasına baxmayaraq bir-birimizlə uzaqdan-yaxından maraqlanır və müvəffəqiyyətlərimizə dost kimi sevinirdik. Bu müddət ərzində Həsən müəllim böyük cərrah, klinisist, təcrübəli müəllim və yetkin alim, təvazökar, səmimi dost kimi yetişdi və məşhurlaşdı.

Nəhayət, uzun ayrılıqdan sonra tale bizə yenə də eyni kollektivdə işləməyi nəsib etdi. O, öz məktəbini yaratmışdır. Pedaqoji, elmi və təcrübi işi çoxları üçün örnək olmuşdur.

Yüksək insani keyfiyyətlərə malik dostum el ağsaqqalı kimi Bərdə, Tərtər, Ağdam, Ağcabədi bölgələrində, ölkəmizin hər yerinə yaxşı tanınmış, uzun illər insanların ümidgahı olmuşdur. Həsən müəllim qayğıkeş ata, baba, ər, səmimi dost kimi prinsipiallığı ilə hər kəsə nümunə olmuşdur.

Bu gün biz Həsən müəllimi, aramızdan erkən getmiş dostumuzu minnətdarlıqla xatırlayır, xeyirxahlığını, xoş əməllərini ehtiramla yad edirik.

Həsən müəllim! Bu gün ailənizə, övladlarınıza, nəvələrinizə xoş günlər, firavan yaşayış arzulayıram. Yarımçıq işlərinin, ideyalarının tələbələrin təərəfindən müvəffəqiyyətlə tamamlanmasını arzu edirəm. Ulu Tanrıdan rahat yatmağını, ruhunun həmişə sakit və şad olmağını diləyirəm! Əziz dostum, Allah Sənə rəhmət etsin!!!

**ÇƏRKƏZ CƏFƏROV**
***Ümumi cərrahlıq kafedrasının professoru,***
***Tibb elmləri doktoru***



## GÖZƏL İNSAN, BÖYÜK CƏRRAH

Həsən müəllim haqqında fikir söyləmək asan olduğu qədər də çətindir. Asanlığı onu tanıyanların haqqında ürək dolusu danışmağa sözlərinin olması, çətinliyi isə Həsən müəllimin şəxsiyyətini səciyyələndirən bütün keyfiyyətləri sadalamağın qeyri-mümkünlüyüdür. Taleyin hökmü ilə 1979-80-ci illərdə subordinatura və internatura keçdiyim dövrlərdə Həsən müəllimlə birbaşa təmasda olmaq, onun rəhbərliyi altında işləmək xoşbəxtliyi mənə nəsib olmuşdur. Həmin vaxtdan əsası qoyulan xoş və doğma münasibət sona qədər davam etmişdir. Hələ o dövrdə Həsən müəllim respublikada cərrah-koloproktoloq kimi kifayət qədər tanınmış mütəxəssis idi və təbii ki, ona müraciət edən xəstələr çox olurdu. O, zamanlar Azərbaycanda koloprotokolo-



giya elmi empirik səviyyədə olduğundan və bu sahədə mütəxəssislərin olmaması səbəbindən bu işlərin əsas ağırlığı Həsən müəllimin üzərinə düşürdü. O isə gecə-gündüz çox böyük həvəs, entuziazmla, yorulmaq bilmədən çalışırdı. Elmin ən son nailiyyətlərini tətbiq etməyə, eyni zamanda onların Azərbaycana gəlməsinə böyük əmək, enerji sərf edirdi.

Yaxşı yadımdadır, Həsən müəllim o zamanlar Sovet İttifaqında 2 proktoloji məktəbdən birinin banisi professor Aminevi hansı müsibətlər və çətinliklərlə Azərbaycana gətirdi. Professor Aminev bir neçə mühazirə oxudu, cərrahi əməliyyatlar apardı. Onun dedikləri və etdiklərinin əksəriyyəti istər yaşlı, istərsə də cavan cərrahlar üçün tamamilə yeni olduğundan hamı çox böyük həvəslə bu tədbirlərdə iştirak edirdi. Professor Aminev ilk dəfə bizim cərrahlara canlı olaraq Milliqan-Morqan üsulu ilə hemorroidektomiya əməliyyatını nümayiş etdirdikdən sonra bizim xəstələrin illərlə icra olunan, qüsurlu və çoxdan köhnəlmiş, əzablı liqatura qoyulması metodikasından canları qurtardı. Köhnə, çox travmiatik və qeyri-radikal üsul, yeni müasir, tam radikal üsulla əvəz olundu və tezliklə bütün Respublikaya yayıldı. Bu Həsən müəllimin xalqımız qarşısında əvəzsiz xidməti idi.

Həsən müəllim cərrahiyyədə, eləcə də həyatda ilk müəllimlərimdən biri olmuşdur. Mən və bir çox yaşıdlarım Həsən müəllimdən daim ağsaqqal məsləhətləri almış, onun bəhrəsini görmüşlər. Subordinatura və internatura dövrlərində onunla gündüzlər planlı əməliyyatlarda iştirak edər, gecələr isə növbələrdə qalardıq. Cavan həkimlərin demək olar ki, hamısı onunla işləməyə can atardılar. Həsən müəllim bizə sərbəst

işləməyə daha çox imkan verən, çətin anlarda güvənc yerimiz olan, həmişə əlçatan, doğma cərrah, sadəliyi ilə hamıdan seçilən gözəl insan, böyük qardaş idi.

Mən SSRİ Tibb Elmləri Akademiyasının A.V. Vişnevski adına cərrahiyyə institutunda işləyərkən Həsən müəllimin orada doktorluq dissertasiyası işinin aprobasiyasının təşkilində yaxından iştirak edib onun uğurla keçməsi üçün əlimdən gələn köməkliyi çox böyük həvəslə, istəklə yerinə yetirdim və bundan çox məmnun oldum.

Həsən müəllimlə münasibətlərim yeni rakursda, daha yüksək səviyyədə öz davamını 1988-ci ildə mən ATU-ya qayıtdıqdan sonra tapdı. Əvvəllər o, sonralar isə mən I-müalicə-profilaktika fakultəsinin dekanlığında işlədiyimiz illərdə aramızda əsil dostluq, qardaşlıq münasibətləri formalaşdı. Onu özümə çox yaxın, doğma bildiyimdən hər bir məsələni onunla müzakirə edər, məsləhətlərini alardım. Həsən müəllim özünəməxsus səbr, təmkin, böyük həyat təcrübəsi və təmiz ürəklə insani dinləməyi bacardığı kimi, ona dəyərli məsləhətlərini verməyi bacaran nadir şəxsiyyətlərdən idi. Söylədiyim və deyə bilmədiyim bütün müsbət keyfiyyətlərin bir insanda bu qədər üzvi, uğurla toplanması ilk baxışda qəribə görünsə də bunların hamısının əsası, dərin kökləri var. Zənnimcə, bütün bunlar Həsən müəllimin genofondu, onun çox sanballı və nüfuzlu ailənin övladı olmağı ilə əlaqədardır.

Mən Səhiyyə Nazirliyinin baş cərrahi kimi fəaliyyətə başladığım ilk gündən Həsən müəllimin məsləhət və tövsiyələrinə çox böyük hörmətlə, diqqətlə yanaşmışam. Onun böyük cərrahlıq və həyat təcrübəsindən faydalanmağa çalışmışam.

Həsən müəllim Azərbaycan cərrahiyyəsinin ağsaqqallarından biri kimi üzərinə düşən böyük missiyanın öhdəsindən ləyaqətlə gəldi. Onu istər təcrübəli, istərsə də gənc cərrahlar özlərinə müəllim saymış, daim ondan öyrənməyə çalışmışlar. Axı o, müasir Azərbaycan elmi koloproktologiya məktəbinin şəriksiz banisidir.

Bu gözəl insanın dünyadan getməsi tibb elmi, Azərbaycan səhiyyəsi üçün həqiqətən böyük itkidir. Onun yoxluğunu hər zaman hiss edəcək, xüsusilə çətin situasiyalarda onu daim anacaq və xatırlayacağıq. Allah rəhmət etsin!

**MƏHƏMMƏD KƏRİMOV**

***Ümumi cərrahlıq kafedrasının professoru, Çeçenov adına Moskva Dövlət Tibb Universitetinin Bakı filialının cərrahi xəstəliklər kafedrasının müdiri***



## ELMƏ, ALİMƏ, İNSANLARA QİYMƏT VERMƏYİ BACARAN ŞƏXSİYYƏT

Həsən müəllimlə ilk tanışlığım 1988-ci ilə təsadüf etmişdir. O zamana qədər Respublikamızın və keçmiş SSRİ-nin cərrahi profilli elmi-periodik jurnallarında dərc edilmiş sanballı elmi məqalələrini oxumuş, elmi tədbirlərdə çıxışlarını, məruzələrini dinləmiş, haqqında hər zaman xoş sözlər eşitmişdim. Az sonra onun professoru, daha sonra müdiri olduğu kafedrada cərrahlıq tsikli üzrə subordinatura və klinik ordinaturada təhsilimi davam etdirməyə başladım. Aspiranturaya sənəd qəbuluna bir neçə ay qalmış məni iş otağına dəvət edərək qarın boşluğu üzvlərinin kəskin cərrahi xəstəliklərinin kompüter diaqnostikası problemləri ilə məşğul olmağı tövsiyə etdi. O illər kompüter texnologiyası, informa-

siya texnologiyaları, proqram təminatı sahəsi olduqca zəif inkişaf etmişdi. Elmlər Akademiyasında, texniki profilli ali məktəblərdə və elmi-tədqiqat institutlarında nəhəng elektron hesablama maşınları, irihəcmli superkompüterlər mövcud idi, və təbii ki, proqram təminatı həmin maşınlara hesablanmışdı. Tibb təyinatlı proqram vasitələri, ekspert sistemləri MDB, hətta dünya mastabında demək olar ki, olduqca az, və təbii olaraq, inanılmaz səviyyədə primitiv idi. Haradan, nədən və necə başlamaq, kimdən nə isə soruşmaq, nə isə öyrənmək məsələləri olduqca çətin və mürəkkəb idi. Bir müddət araşdırmalar apardıqdan sonra Həsən müəllimə yaxınlaşdım, o dövrün kompüter texnologiyalarının və proqram təminatının mövcud vəziyyəti haqqında topladığım məlumatlardan ibarət hesabat verdim, sonda bildirdim ki, "nə etməli, nədən başlamalı?" sualına belə cavab tapa bilmirəm. O, təmkinini pozmadan "Rektordan xahiş etmişəm, kompüter alaq, sonrasına baxarıq". Az sonra Tibb Universitetinin böyük vəsaitlə aldığı 2 fərdi kompüterdən biri Həsən müəllimin səyi ilə bizim kafedraya ayrıldı. Həmin kompüterin texniki parametrlərini sadalasam bu günün gənclərində istehza və gülüş doğurar. O vaxtlar insanların, hətta həkimlərin, alimlərin böyük hissəsi kompüterin nə olduğunu belə bilmir, addımbaşı bu aparatın təyinatını soruşardılar. Belə bir atmosferdə, çoxsaylı qaranlıq suallar məngənəsində yenicə formalaşmağa başlayan elm sahəsi ilə ciddi məşğul olmaq xeyli riskli idi...

...bir gün səhər, iş gününün əvvəlində məni kabinetinə dəvət edərək və onunla yanaşı oturmuş 2 şəxslə - Azərbaycan Dövlət Neft Akademiyasının hesablama maşınları və proqramlaşdırma kafedrasının

müdiri Professor Sabit Kərimov və həmin kafedranın dosenti Əhməd Babanlı ilə tanış etdi. Sonuncu hazırda Adana Universitetinin professoru, Türkiyənin sayılmış-seçilmiş alimlərindən biri, və nəhayət qardaş ölkənin Universitet müəllimlərinin reytinq siyahısında yüksək yerlərin daimi sahibidir. Mənə qədər bu mövzu barədə onlar arasında artıq söhbət olmuşdu. Mənim fikirlərimi dinlədikdən sonra həm S. Kərimov, həm də Ə. Babanlı olduqca mürəkkəb sahəyə baş vurmağımızı, nəyə isə nail olmağın, hansısa uğur qazanmağın çox çətin olacağını bildirdilər. Belə müəmmalı şəraitdə Həsən müəllimin "başlayaq, sonrasına baxarıq. Biz bu sahənin pioneri olacağıq. Mən buna əminəm" sözləri qarşısında susmaqdan başqa çarəmiz qalmadı.

... başladıq. Cəmi 2 ildən sonra MDB məkanında ilk tibbi-diaqnostik ekspert sistemi hazırladıq və ilk dissertasiya işi müvəffəqiyyətlə müdafiə olundu.

1990-cı ilin payız günlərindən birində məni kabinetinə dəvət etdi və soruşdu "mənə dekan vəzifəsi təklif edirlər. Necə bilirsən, işləyə bilərəm". Fikirləşdim ki, yəqin mənə qədər çoxları ilə məsləhətləşib. Çox güman ki, tələbəlik illərində Universitetin Tələbə-elmi cəmiyyətinin sədrinin müavini olduğuma görə mənim də fikirlərimi bilmək istəyir. Sonradan öyrəndim ki, Tələbə-elmi cəmiyyətinin o vaxtkı sədri, hazırda kafedramızın dosenti Eldar Əliyevin də rəyini öyrənib, hətta tələbələrdən tutmuş qocaman professorlara qədər çoxlarının fikrini soruşub. "Belə yumşaq, ipək xarakterlə Sizə çox çətin olacaq. Lakin əl-ələ verib işləyərik, Sizə hər cür kömək etməyə çalışarıq" dedim. Dekan kimi uzun zaman uğurlu fəaliyyət göstərdi. Arada, nə isə çətinlik, hansısa problem yarananda mənim sözlərimi xatırlayardı.

Həsən müəllim həmişə yeniliyə can atması, hər cür əsaslandırılmış təşəbbüsləri dəstəkləməyi və onları reallaşdırmağı bacaran alim idi. 1996-cı ildə kafedramızda, Universitetimizdə ilk laparoskopik əməliyyatın keçirilməsi hamıdan çox onu sevindirdi. Laparoskopik cərrahlığın inkişafı, yeni kadrların hazırlanması üçün əməyini heç zaman əsirgəmədi. Ən layiqli kadrların Türkiyədə, Avropa ölkələrində təkmilləşdirmə, ixtisasartırma kurslarına getməsinin təşəbbüskarı oldu. Məhz buna görə ölkəmizin cərrahlığında ilk olanların əksəriyyətini Professor H.A. Sultanovun özü və istedadlı tələbələri həyata keçirmişlər. Düz bağırsağın onkoloji cərrahlığında ikibriqadalı cərrahi əməliyyat metodikası ilk dəfə onun tərəfindən yerinə yetirildi. Ölkəmizdə hemorroyun, pararektal fistulların azinvaziv cərrahlığı, aralığın, rektovaginal defektlərin ilk bərpa əməliyyatları onun adı ilə bağlıdır. Respublikamızda ilk laparoskopik fundoplikasiya, ilk laparoskopik hernioplastika, ilk laparoskopik histerektomiya, ilk laparoskopik uşaqlıq suspenzionu, varikoz qanaxan düyünlərin ilk endoskopik bağlanması, ilk endoskopik xoledoxolitotomiya, ilk endoskopik papillosfinkterotomiya, ilk laparoskopik xoledoxolitotomiya və xoledoxoduodenostomiya, maye şırnağı ilə qaraciyərin ilk rezeksiyası, qaraciyərdən ilk laparoskopik exinokokkektomiya, ağciyərdən ilk torakoskopik exinokokkektomiya, təcrid olunmuş və müştərək travmalara görə ilk laparoskopik və torakoskopik əməliyyatlar, ilk laparoskopik hemikolektomiya, ilk neosfinkteroplastika, tək alətlə tireoid əməliyyatları... onlarla digər ilk əməliyyatlar məhz onun tələbələri (AMEA-nın müxbir üzvü, Professor Bayramov N.Y., Professor Zeynalov S.M., Professor Qeybulla A.Ə., Tibb elmləri namizədi Rzayev T.M., Dosent Abbasov A.H., Dosent Rüstəm Ə.M., Dosent Əliyev E.A.,

Həsənov N.Ə., Tibb elmləri namizədi Zeynalov N.A., Tibb elmləri üzrə fəlsəfə doktoru Hümmətov A.F., Tibb elmləri üzrə fəlsəfə doktoru Məmmədov K.M., Tibb elmləri üzrə fəlsəfə doktoru Rəfiyev F.S., Tibb elmləri üzrə fəlsəfə doktoru Namazov A.E., Məhərrəmov P. və b.) tərəfindən icra olunmuşdur. Ölkə səviyyəsində cərrahlıq praktikasında lazer, lazer-maqnit şüalandırılması, ultrasəs kavitasiyası kimi mütərəqqi üsulları ilk olaraq onun tələbələri, əməkdaşları (Dosent Qapaqov F.M., Professor Bayramov N.Y., Professor Qeybulla A.Ə., Dosent İbişov K.H., Dosent Əliyev E.A.) tətbiq etmişlər. Cərrahi xəstəliklərin riyazi modelləşdirilməsi, klinik-epidemioloji monitorinqi kimi uğurlu tədqiqatlar onun rəhbərlik etdiyi kafedrada Professor Qeybulla A.Ə. tərəfindən müvəffəqiyyətlə davam etdirilir. Artıq onun istedadlı tələbələri Professor Bayramov N.Y., Professor Qeybulla A.Ə., Professor Əliyev S.A. və Professor Zeynalov S.M. xalqımız, elmimiz üçün olduqca vacib fəaliyyətə - gənc alimlərin hazırlanması prosesinə layiqincə qoşulmuşlar və ilk nailiyyətlər qazanmışlar.

Müdrik alim artıq aramızda yoxdur. Əslində cisimi əbədiyyətə qovuşmuşdur, canından-varlığından əziz tutduğu doğma torpağına, Vətən torpağına qovuşmuşdur. Onun arzuları, ideyaları, tükənməz ruhu həmkarlarının, dostlarının, çoxsaylı tələbələrinin, övladlarının, nəvələrinin ... qəlbində yaşayır və yaşayacaqdır. Allah ruhunu sakit etsin! Allah rəhmət etsin və məzarını daim nurla doldursun!!!

**ƏDALƏT RÜSTƏM**
***I-cərrahi xəstəliklər kafedrasının Dosenti,***
***Tibb üzrə fəlsəfə doktoru***



## BÖYÜK ALİM VƏ YARADICI İNSAN
## (80 illik yubileyinə)

Həsən Sultanov savadı, biliyi, qabiliyyəti, dünyağörüşü, xeyirxahlığı, mehribanlığı, vətənpərvərliyi ilə fərqlənən, hamıya örnək olan alim-cərrah, pedaqoq kimi, böyük insan kimi yaddaşlada həmişə yaşayacaqdır. O, əsil təbabət və maarif fədaisidir. Həsən müəllimin arzusu və ğördüyü işlər bilikli, qabiliyyətlii gəncləri secib yetişdirmək, ortaya çıxarmaq, onlara arxa, dayaq durmaqdan ibarət olmuşdur. O, bu müqəddəs yolda hər cür əziyyətlərə qatlanahaq ülvi məqsəd-lərinə nail olmuşdur. Həsən müəllim bir necə nəsl həkimlər və cərrahlar yetişdirmişdir. Yüzlərlə həkim-cərrah özünü bu ğün onun tələbəsi hesab edir.

Azərbaycanın elə bir kəndi və şəhəri yoxdur ki, orada Həsən müəllimin tələbələri, yetişdirdiyi həkimlər olma-

sın. Cərrahlığa dair dərslikləri, dərs vəsaitləri və monoqrafiyaları bu ğün tələbələrin, ğənc həkimlərin stolüstü kitablarıdır. Yüzlərlə elmi əsərləri, onlarla tibb elmləri namizədləri və doktorları, minlərlə ölümdən xilas olmuş insan həyatı onun şəfalı əllərinin, yuxusuz gecələrinin, gərgin əməyinin və ən əsası dərin zəkasının məhsullarıdır.

İnsanlara qarşı məhəbbət, nadir istedad, tükənməz enerji, zəhməti sevmək kimi yüksək insani keyfiyyətləri sayəsində o, cərrahlıq elminin ən vacib sahələrində, xüsusi ilə cərrahi koloproktologiyada böyük müvəffəqiyyətlər qazanmışdır. Azərbaycanda elmi koloproktologiyanın təşəkkülü, inkişafı və tərəqqisi bilavasitə onun adı ilə bağlıdır.

Mənim Həsən müəllimlə ilk tanışlığım onun Bərdə rayonunda həkim-cərrah işlədiyi zamanlara təsadüf etmişdir. O zaman mən də həkim olmaq arzusunda idim. Həsən müəllimin xəstələrlə münasibəti, davranışı, onlarla söhbəti mənə cox cazibəli və ecazkar görünürdü. Sonrakı illərdə – tələbəlik illərində, birgə işlədiyimiz uzun illərdə müəllim kimi, Universitetimizin ən böyük, ən nüfuzlu fakultəsinin dekanı kimi fövqəladə rəhbərlik, müəllimlik qabiliyyətinin və insani keyfiyyətlərinin şahidi oldum. Onun insanlarla münasibəti cilalanmış, təkmilləşmişdir.

Aspiranturada təhsilimi davam etdirdiyim illərdə, müəllim işlədiyim dövrdə onunla, onun kafedrasının dəyərli əməkdaşları ilə daha yaxın münasibətlərimiz formalaşdı. Onunla birgə işləməyi, eyni tələbələrə dərs deməyi özümə şərəf bilirəm.

Hamımıza əziz olan gözəl İnsan HƏSƏN SULTANOVun əbədiyyətə qovuşması, ömrünün müdrik çağında bizi tərk etməsi bir dost kimi məni də sarsıtdı. Lakin ondan təsəlli tapıram ki, əziz dostum, qardaşım və həmkarımın ideyaları, yarımçıq qalmış arzuları tələbələri tərəfindən həyata keçiriləcək, müvəffəqiyyətlə tamamlanacaqdır. Alləh sənə rəhmət etsin, BÖYÜK İNSAN!!!

**AZƏR ŞADLİNSKİ**
***Ümumi cərrahlıq kafedrasının dosenti***



# SADƏCƏ SADƏ İNSAN

Həsən müəllimi 1974-cü ildən tanıyıram. O zaman M. Nağıyev adına Kliniki Təcili Tibbi Yardım Xəstəxanasının II-cərrahiyyə şöbəsində cərrah ordinator vəzifəsində işləyirdim. Həsən müəllim isə I-cərrahi xəstəliklər kafedrasının assistenti idi. O zamandan çox illər keçib, Həsən müəllim tibb elmləri doktoru, professor, əməkdar elm xadimi kimi şərəfli adlara layiq görüldü, uzun illər həmin kafedranın müdiri vəzifəsində işlədi. ATU-nin ən böyük fakultəsinə rəhbərlik etdi. Lakin bütün bunlara baxmayaraq kafedpada və xəstəxanada hamı ona sadəcə Həsən müəllim deyərək müraciət edər, hər bir həmkar onu özünə yaxın dost, sirdaş, alim və müəllim hesab edərdi. Həsən müəllimin böyüklüyü, təvazökarlığı, həmkarlarına, tələbələrinəə

və xəstələrinə münasibətində hər an özünü göstərirdi. Bu münasibəti sadə bir misalla izah etmək istərdim.

1980-ci ildə Həsən müəllimin başçılığı ilə təcili cərrahiyyədə növbətçi idik. Bir xəstədə kəskin appendisit aşkar etdim və məsul növbətçi cərrah Həsən müəllimə xəstəni göstərdim, onun tərəfindən diaqnoz təsdiqləndi. Təcili cərrahi əməliyyat aparmaq lazım idi. Xəstənin qohumları Həsən müəllimə yaxınlaşaraq əməliyyatın mənim tərəfimdən aparılmasına ondan icazə verməyi xahiş etdilər. Həsən müəllim məni yanına çağıraraq təbrik etdi və əməliyyatı aparmağa icazə verdi. Bu formada addımı yalnız təmiz ürəkli, geniş qəlbli, sağlam düşüncəli, təvazökar bir adam ata bilərdi.

Onun aramızdan getməsi, əbədiyyətə qovuşması bütün tələbələri kimi məni də çox sarsıtdı. Böyük alimlə, gözəl insanla, əsil müəllimlə ayrılıq hər kəsi üzür. Bir şeylə təskinlik tapırıq ki, onun əməlləri, arzuları, istəkləri daim yaşayacaq, əziz xatirəsi yaddaşlarımızdan heç zaman silinməyəcəkdir. Allah rəhmət etsin!!! Ruşu şad olsun!!!

**SƏXAVƏT RƏFİYEV**
***I-cərrahi xəstəliklər kafedrasının Dosenti***



## ADİ HADİSƏLƏRİ BÖYÜK HƏQİQƏTLƏRƏ ÇEVİRƏN ALİM

Unutmuşam, deyəsən A.P. Pavlovun sözləridir. Yalnız mənası yadımda qalıb: "Dahilərin dahiliyi ondadır ki, onların kəşf etdikləri, icad etdikləri elmə, hamıya məlum olduqdan sonra istənilən şəxs deyir ki, burada nə var ki, bunu mən də kəşf edərdim, bunu mən də icad edərdim. Dahilər hamının hər gün gördüklərini, lakin dərk etmədiklərini, dərk edə bilmədiklərini reallığa, gerçəkliyə çevirməyi bacaranlardır".

... təxminən 30 ilin söhbətidir. M. Nağıyev adına Təcili Tibb Yardımı Klinik Xəstəxanasının (İndiki Səhiyyə Nazirliyinin) I mərtəbəsində ultrasəs kabinetində işləyirdim. O vaxt Yaponiya istehsalı olan kiçik, sadə portativ diaqnostik ultrasəs aparatı ilə

xəstələri müayinə edirdim. Bugünkü, son nəsil aparatlardan fərqli olaraq həmin aparatın imkanları olduqca zəif, təsvirlər çox keyfiyyətsiz idi. Həsən müəllimlə qonşu idik. Yanaşı otaqda proktoloji xəstələri qəbul edirdi. Boş vaxtlarımızda görüşür, fikir mübadiləsi aparır, mübahisəli vəziyyətlərdə məsləhətləşir, birgə qərarlar qəbul edirdik. O kafedranın dosenti idi. Təcrübəsinə, savadına, elminə çox güvənirdim.

... bir gün iş kabinetimə daxil oldu. Sakit, təmkinli şəkildə şikayətlənməyə başladı. Cümşüd, mənim bunlarla (Səhiyyə Nazirliyinin o vaxtkı rəhbər və məsul şəxslərini nəzərdə tuturdu) davam kolonoskop davasıdır. Neçə illərdir, kolonoskop davası edirəm, sağ olsunlar, hələ ki, yalnız söz verirlər... Bu zəhrimar, rektoskop uzaqlara çatmır. İrriqoqrafiya da çox vaxt aparır, xəstəni də, məni də bezdirir. Bir xəstəmdə "S-əbənzər" bağırsağın şişinə, törəməsinə şübhə var. Kolonoskop olsa idi, əla olardı. Birdən gözü sonuncu xəstənin müayinə protokoluna sataşdı: "Sidik kisəsinin polipi". "Cümşüd, bunu necə gördün? Yəqin sidik kisəsi tam dolmuş vəziyyətdə idi" - soruşdu. Cavabında "bəli" dedim. Bəlkə, biz də yoğun bağırsağı, "S-əbənzər" bağırsağı su ilə doldurub, ultrasəslə müayinə edək. O zamanlar belə müayinə, mədə-bağırsaq sisteminin ayrı-ayrı şöbələrinin su ilə doldurulduqdan sonra ultrasəs müayinəsi heç yerdə aparılmırdı. Ultrasəslə müayinə boşluqlu üzvlər üçün nəzərdə tutulmamışdı. Razılaşdım.

2 gün sonra hazırlanmış, yoğun bağırsağı təmizlənmiş və su ilə doldurulmuş xəstəni kabinetimə gətirdi. Ultrasəs müayinəsində həmin xəstənin "S-əbənzər" bağırsağında hamar kənarlı, mənfəzə doğru inkişaf etmiş

törəmə aşkar etdik. Bu bəlkə də dünya tibb tarixində yoğun bağırsağın yeni törəməsinin ultrasəs müayinəsi ilə diaqnozlaşdırılmış ilk nümunəsi idi. Təvazökar olduğundan bu məsələni heç sənədləşdirmədi də, elmi məqalə yazıb dərc etdirmədi də. Üstündən 10-15 il keçdikdən sonra boşluqlu üzvlərin ultrasəslə müayinə metodikası dünya tibb diaqnostikasına daxil oldu. Həmin müayinə üsulu onun istedadlı tələbəsi Professor Saday Əliyevin ağır əməyi və gərgin səyləri hesabına xeyli təkmilləşdirildi və klinik praktikada möhkəmləndi.

Mənə verilmiş fürsətdən yararlanaraq əziz dost, gözəl müəllim, ustad sənətkar, istedadlı alim, ecazkar həkim Həsən müəllimin vəfatı ilə əlaqədar onun ailəsinə, əzizlərinə, təməlini qoyduğu böyük cərrahlıq məktəbinin bütün üzvlərinə başsağlığı çatdırmağı özümə borc bilirəm!

**CÜMŞÜD CÜMŞÜDOV**

***Ümumi cərrahlıq kafedrasının dosenti, Tibb üzrə fəlsəfə doktoru, Əməkdar həkim***



## BÖYÜK USTAD, SEVİMLİ MÜƏLLİM, ŞƏFALI ƏLLƏR SAHİBİ

Dünya görmüş təcrübəli bağbanın bol bar verən meyvə ağacları ilə elm adamlarının oxşarlığı və maraqlı müqayisəsi haqqında söhbətini unuda bilmirəm. Bu söhbəti mənə tez-tez xatırladan hörmətli müəllimim, elmi rəhbərim, uzun illər birgə işlədiyimiz, hər an hamımıza örnək olmuş Azərbaycan Respublikasının əməkdar elm xadimi, "Şöhrət" ordenli, Tibb elmləri doktoru, Professor Həsən Abbas oğlu Sultanovdur.

Qocaman bağban seyrək ağ saçlarını barmaqları ilə darayaraq iti baxışlarla külək cövlan edən bağa baxar və deyərmiş: "İnsanlar da ağaclara oxşayırlar. Kimin elmi yoxdursa, külək onu barsız ağac kimi ora-bura əyər, dağa-daşa çırpar. Dayaz bilikli insanlar az

meyvə verən ağaclar kimi hər zaman özlərini gözə soxmağa çalışar, çox bilən kimi göstərməyə cəhd edərlər. Dərin elmi bilikləri və yüksək insani keyfiyyətləri ilə seçilən insanlar isə bol bar gətirmiş ağaclara bənzərlər. Barı, mer-meyvəsi çox olduqca başını aşağı dikər, əsən güclü küləklərə asanlıqla tab gətirər və heç zaman əyilməzlər".

"Olduqca sadə, sadə olduğu qədər də uca, böyük insan, təmiz qəlbli, geniş ürəkli və mehriban şəxs" – Həsən müəllim onu tanıyan hər kəs tərəfindən belə qəbul edilər və sevilərdi. Həsən həkimin nurani çöhrəsi, səmimi söhbətləri neçə-neçə xəstənin yarasına məlhəm olar, ümid diləyən baxışlara nur saçar, onların qəlbində həyat eşqi sönməz alova, atəşgaha çevrilərdi. O, şəfalı və hərarətli əlləri ilə yüzlərlə xəstəyə şəfa verər, onları yenidən həyata qaytarardı... Təəssüf ki, onunla bağlı yazılarımızın, deyəcəklərimizin zamanı dəyişdi. Taleyin amansız hökmü beləymiş.

...deyirlər tarix həmişə təkrar olunur. Ən böyük yenilik unudulmuş keçmişdir. Elm və texnikanın sürətli inkişafı, əsaslı, inqilabi dəyişikliklər və ağlasığmaz elmi tərəqqi belə bir müddəanı inkar etmir ki, zaman keçdikcə insan həyatını amansız xisləti ilə məhv etməyə cəhd edən çarəsiz xəstəliklər tibb elminin uğurları qarşısında baş əyəcək, geri çəkiləcək, təslim olacaq. Bu gün tibb elminin nailiyyətləri qarşısında adi görünən bir çox xəstəliklər, yüz milyonların həyatına son qoyan pandemiyalar asanlıqla müalicə olunur, ləğv edilir və ya artıq tamamilə aradan qaldırılmışdır.

Tibb elminin vüsətli inkişafı, bu sahədə fəaliyyət göstərən elmi-pedaqoji və praktik kadrların gərgin

əməyi insan zəkasının tükənməzliyini, hüdudsuzluğunu əyani şəkildə ortaya qoydu, insan ömrünün uzanmasına, bəzi xəstəliklərin birdəfəlik səhiyyə tarixinin arxivinə atılmasına, əsrlər boyu sağalmaz hesab edilən digərlərinin ram edilməsi ilə tamamlandı.

İnsanların, bütövlükdə cəmiyyətin dərin hörmətini və məhəbbətini qazanmaq yalnız o vaxt mümkündür ki, gərək öz üzərində müntəzəm çalışasan, nəzəri-fundamental bilikləri praktika ilə əlaqələndirməyi bacarasan, sənətinin vurğunu olasan və ali varlığa - İnsana sonsuz məhəbbət bəsləyəsən. Öz əməyi ilə ucalanlar elmin zirvəsinə yüksəlir, böyük hörmət sahibi olurlar, qəlblərdə əbədi yaşamaq hüququ qazanırlar.

Elmin yolu daşlı-kəsəklidir, keşməkeşlidir. Yalnız qorxudan uzaq olanlar, daşlı-kəsəkli, enişli-yoxuşlu yollarla hətta ayaqyalın getməkdən çəkinməyənlər, hər cür əziyyətlərə və məhrumiyyətlərə cəsarətlə qatlaşanlar onun zirvəsinə yüksələ bilirlər. Elm fədailəri, o cümlədən, tibb elminin ulduzları, bax, bu əzablı yolun, bu şərəfli yolun yolçuları olmaqla həqiqi hörmətə və ehtirama layiq şəxsiyyətlərdir. Yaxşı deyiblər ki, həyat böyük şəxsiyyətlərin çiyinləri üzərində qərar tutur. Azərbaycan xalqını şöhrətləndirən, tanıdan, xalqına şərəf gətirən müdrik şəxsiyyətlər içərisində səhiyyəmizin görkəmli alimlərinin xüsusi yeri və hörməti vardır. Biz Azərbaycan səhiyyəsinin fəxri, qüruru sayılanlardan biri, şərəfli həyat yolu keçmiş, yüksək mənəvi keyfiyyətlərə, qayğıkeş, tələbkar, rəhbərlik və təşkilatçılıq qabiliyyətlərinə malik, 60 ilə qədər xalqımızın sağlamlığının keşiyində durmuş, tibb elmimizin inkişafına layiqli töhfələr vermiş, elmi-pedaqoji fəaliyyəti ilə istedadlı tibb kadrlarının yetişdirilməsinə gərgin əmək



sərf etmiş və etməkdə davam edən əməkdar elm xadimi, tibb elmləri doktoru, Professor Həsən Abbas oğlu Sultanov haqqında, onun elmi-fundamental, nəzəri, pedaqoji və praktik fəaliyyəti, Azərbaycan Səhiyyəsinin inkişafında onun müstəsna xidmətləri haqqında dəyərli həmkarlarımla birgə söhbət açmağı özümüzə mənəvi borc bildik. Və təəssüflərimizi də bildirməyi vacib hesab edirik. Çünki bu gözəl insan aramızdan tez getdi. Yarımçıq işləri, tükənməz arzuları, bolluca ideyaları qaldı. Bizə, tələbələrinə ... Onları sona çatdırmaq, tamamlamaq hər birimizin borcudur. Yalnız belə olduqda Həsən müəllimin ruhu şad olar. Allah rəhmət eləsin, doğma, əziz müəllimim!!!

**ELDAR ƏLİYEV**
***I-cərrahi xəstəliklər kafedrasının professoru,***
***Tibb elmləri doktoru***



## UNUDULMAZ İNSAN

Hər bir insanın həyatında həlledici xarakter daşıyan elə anlar olur. Mənim üçün həlledici məqamlardan biri Azərbaycan Tibb Universitetinin I-cərrahi xəstəliklər kafedrasının müdiri professor Həsən Sultanov ilə bağlıdır. 2001-ci ilin dekabr ayında bu kafedraya aspiranturaya qəbul olmuşdum. Bundan əvvəl 2 il ərzində həmin kafedrada klinik ordinatura keçdiyimə görə kollektivlə yaxından tanış idim. İlk öncə Həsən müəllimin kabinetinə getdim ki, dissertasiya işimin mövzusu barədə söhbət edim. Həmişə olduğu kimi, o, məni çox mehriban qarşıladı. Məni təbrik etdikdən sonra planlaşdırılan iş haqqında danışdı. Professor Sultanov uzun müddət koloproktologiya ilə məşqul olduğuna görə mənə bu vacib sahəyə aid elmi möv-

zu təklif etdi. Amma mənim istəyim, maraq dairəm fərqli idi. O zaman ölkəmizdə laparoskopik cərrahlıq yeni başladığına görə bu sahəyə həvəsim daha çox idi. Fikrimdə çox iddialı mövzu – qaraciyərdən exinokokk sistlərinin laparoskopik yolla xaric edilməsi var idi. Həsən müəllim istəyimi eşidəndə təəcübləndi. “Axı biz bununla məşqul olmamışıq” dedi. Mən də onu inandırmağa çalışdım ki, bu işə başlayıb yerinə yetirəcəyik. Həsən müəllim xeyli fikirləşdi. Sonra dedi: “Yaxşı. Gəl bu mövzu üzərində dayanaq. Mən sənə hərtərəfli kömək edəcəyəm. Mənim özüm üçün də bu maraqlı olacaqdır”. Bu zaman üzərimdə böyük məsuliyyət hiss etdim. Həsən müəllimə dedim: “Bəzi cərrahlarla bu barədə söhbət etmişəm. Onlar mənə deyir ki, bu nağıldır, mümkün olan şey deyil”. Həsən müəllim dərhal cavab verdi: “Darıxma. Biz bu nağılı gerçəkləşdirib, video ilə çəkib onlara göstərəcəyik”. Bu sözlərdən sonra başa düşdüm ki, Həsən müəllimin tam dəstəyini qazandım. Çox sevindim. Həvəslə işə başladım. Aspirantura müddəti bitməmiş işi uğurla başa çatdırdım. İşin sonunda sevincimin bir səbəbi də o idi ki, Həsən müəllimin ümidlərini doğrultdum. Həyatımın belə vacib məqamında professor Həsən Sultanovun mənə göstərdiyi inam və dəstək daim xatirəmdədir. Çətin məsələlərin həllində Həsən müəllimin ümidverici sözlərini, məsləhətlərini yada salır, onun yolunu davam etdirməyə çalışıram.

Allah Həsən müəllimə rəhmət eləsin!

**NADİR ZEYNALOV**
***ATU-nun I-cərrahi xəstəliklər kafedrasının dosenti, Tibb üzrə fəlsəfə doktoru***



## HƏSƏN ABBAS OĞLU SULTANOVUN ƏZİZ XATİRƏSİNƏ

Əməkdar elm xadimi, professor, tibb elmləri doktoru, zəhmətkeş insan, müdrük pedaqoq, nurlu həkim, gözəl ailə başçısı, əsil dost və dəyərli Azərbaycan ziyalısı haqqında xatirə yazmaq bir həmkar kimi məni olduqca təsirləndirir.

Professor Sultanovla ilk tanışlığım I-müalicə-profilaktika fakültəsinə daxil olduğum zaman olmuşdur. O vaxt Həsən müəllim fakültənin dekanı vəzifəsində işləyirdi. 90-cı illərin əvvəlləri Azərbaycan Respublikasının ən çətin dövrü idi. Azərbaycanın müstəqilliyə, azadlığı yeni-yeni can atdığı, istər daxili, istər xarici təziqlərə məruz qaldığı o dövrdə Həsən müəllim özünü əməksevər, vətənpərvər bir şəxsiyyət kimi sübuta

yetirdi. Tələbələr arasında hədsiz hörmətə sahib olan Həsən müəllimin kabinetinin qapısı heç zaman bağlı olmazdı. Hər kəsi səbrlə, ata qayğısı ilə dinlər, hər cür kömək etməyə çalışardı.

Uzun illərdən sonra artıq Həsən müəllimlə bir klinikada çalışdığımız dövrdə onu bir daha kəşf etdim. Yüksək təşkilatçılıq, tükənməz enerji, hədsiz diqqət və qayğı kimi göstəricilər Həsən müəllimin həyat prinsipləri idi. Mən o zaman II cərrahiyyə şöbəsinə rəhbərlik edirdim. Kollektivdə müxtəlif nəsillərin nümayəndələri çalışırdı. Həsən müəllim hər zaman gənc həkimlərin təkmilləşməsinə, onların elmə yiyələnməsinə, peşəkarlıq səviyyəsinin inkişafına xüsusi diqqət ayırırdı. Professor Sultanovun saysız-hesabsız aspirantları, dissertantları və doktorantları var idi. Onun geniş elmi-pedaqoji, ictimai və praktik fəaliyyəti məndə həmişə böyük maraq doğururdu.

Kafedranın geniş, çoxşaxəli, uğurlu işlərindən danışarkən, kafedranın inkişafı prosesində professor Həsən Sultanovun xüsusi rolu olmuşdur. Kafedraya rəhbərlik etdiyi dövrdə yorulmaz elmi-tədqiqat işlərinə, tədrisin təkmilləşdirilməsinə, kadrlara daim qayğı göstərməsinə, onlarin elmi-pedaqojı inkişafina və geniş ictimai fəaliyyətinə görə kollektivdə, universitetdə və Respublika ictimaiyyəti arasında böyük nüfuz qazanmışdır.

Yüzlərlə tələbəyə təhsil vermiş pedaqoq, bilik və bacarıqlarını tələbələrindən əsirgəməyən müəllim, minlərlə xəstələrin ümid yeri, eyni zamanda xəstələrin şəfa tapmağında əvəzsiz rolu olan həkim, əzəmətli insan, böyük vətəndaş, xalqımızın səhiyyəsində silinməz

izlər qoyan, insani keyfiyyətləri ilə hamıya örnək olan, hər zaman qəlblərdə, xatirələrdə yaşayan layiqli mütəfəkkir alim, ruhunuz şad olsun!

Allah rəhmət eləsin!

Dərin hüznlə hər zaman sizi xoş xatirələrlə anan həmkarınız

**RÜFƏT ƏLİYEV**

***Döblət Təhlükəsizlik Xidmətinin Baş Tibb idarəsinin rəisi, Tibb üzrə fəlsəfə doktoru, General-mayor***



## BU İNSANIN SAFLIGI HÜDUDSUZ İDİ...

«Abi» deyə muraciət etdiyim, pesəkarlıq və səxsiyyət baxımından cox uca sandıgım, ürək dostum Nuru müəllimdən sadəcə Həsən müəllim deyə müraciət etdiyim əziz müəllimim haqqında öz ürək sözlərimi yazmaq təklifini eşitdim və verilən vaxtı qacırdım, cünki ilk 2 günü yazacağım sözlərin məsuliyyəti və həyəcanı ilə əritdi. Ailə uzvlərim «mutləq yaz, ata» deyə məni cəsarətləndirdilər. Müəllimlər müəllimi, öz sadəliyi, peşəkarlıgı, humanistliyi və insanseverliyi ilə cox ucada dayanan Həsən müəllim haqqında nə deyim? Kecmis, dünən və bu gün haqqında nə yazım?! Bir vaxtlar «Əsil İnsan haqqında povest» adlanan əsər oxumuşdum. Bax, Həsən müəllim əsil insandır. Tam əminəm ki, onun yüzlərlə tələbəsi, dostu, qonşusu, xəstələri, onunla yal-

nız bir dəfə ünsiyyətdə olan insanlar da belə düsünürlər. Adını böyük ehtiramla cəkir, «çox gözəl insandır» söyləyirlər. Bütün tələbələri kimi yəqinliklə söyləyirəm ki, məni dunyaya valideynlerim gətirib, həyat yolumu özum seçmişəm, bu gün cəmiyyətdə mövqeyimi isə Həsən müəllim müəyyənləşdirib. Mahatma Qandinin sözləridir: «Sözlərinizə diqqət edin, düsüncələrinizə cevrilir; düsüncələrinizə diqqət edin, duyğularınıza dönur; duygularınıza diqqət edin, davranışlarınıza dönür; davranışlarınıza diqqət edin, alısqanlıqlarınıza cevrilir; alısqanlıqlarınıza diqqət edin, xarakterinizə dönür; xarakterinizə diqqət edin, qismətinizə dönür. «Bu gün qismətimlə mənə nəsib olan her seyə görə məhz bu fəlsəfi fikrin ilkinə - sözlərimə diqqət etməyi öyrədən atama və Həsən müəllimə minnətdaram. O bizə nələr öyrətmədi ki? İnsan sevgisi, dosta münasibət, xəstəyə münasibət, peşə səriştəsi və bu peşəyə sonsuz sevgi, həyat fəlsəfəsi və s.. Onu daim işə tələsən, işguzar gördük, işguzarlıq öyrəndik. Onu vətənsevər gördük, vətəni sevməyi öyrəndik. Onda vətən itkisi gördük (Həsən müəllim itirdiyi Dərələyizi, Arazdəyəni həmişə sevə-sevə, əzizləyə-əzizləyə, tumarlaya-tumarlaya xatırlayar-dı). Vətən itkisinin, Vətən sevgisinin nə olduğunu anladıq. Ailəmin ən yaxın, ən sevimlisi idi, Həsən müəllim! Cünki elciliyimi belə o etmişdi. Yadımdadır, subordinatura vaxtı Həsən müəllimdən icazə alıb, Daşkəsənə tələbə dostumun atasının yas yerinə getməyimi xahiş etdim. Bircə cümlə: «Get, yaxsı edirsən. Ağsaqqallığı cavanlıqdan öyrənmək lazımdır» dedi. Qəbələyə çox dəvət etdim, yalnız bir dəfə gəldi, bizim ailə üzvləri ilə bulaq başına getdilər. İşimi qurtarıb axşam saat 6-da onların yanına getdim. Həyat yol-

daşım məni qınadı: «Həsən müəllim indiyədək cörək yeməyib, səni gözləyir» dedi. Və artıq baş həkim işləyən yetirməsinə əlini cibinə aparmağa belə razı olmamışdı, bütün bazarlığı özü etmişdi.

Açıq deyirəm, onun mənə qayğısını xatırladıqda həmişə kövrəlirəm. «ALLAHım bu insanın saflığı hüdudsuz idi» deyərdim. Koloproktoloq kimi yetişməyim, tibb elmləri namizədi olmağım, bas həkimliyim onun xeyir-düası ilə baş tutub. Hər dəfə məni görəndə: Sabir maşını özün sürmə, sürücün sürsün. Axı sən böyük bir rayonun səhiyyəsinə cavabdehsən. Şəxsi, işlə bağlı fikrin-zikrin coxdur, özün sürmə» deyərdi.

Həsən müəllimin həmkarlarına, xəstələrə, ailə üzvlərinə, uşaqdan böyüyə hər bir insana münasibəti hamıya örnək, əsil nümunə idi. Azərbaycan Dövlət Universitetini bitirmis Sima xanımın evdar qadın kimi calışmasını Həsən müəllim «O, sənətini, böyük elm yolundakı irəliləyişini mənə xidmətinə, uşaqlarına qurban verdi» deməklə öz ürək istisini Sima xanıma bildirərdi.

Bir məsələni təkrar vurğulamağı özümə borc bildim. Həsən müəllimdə böyük yurd sevgisi gördum, əzəli türk yurdu İrəvan, Dərələyəz nisgili gördüm və bunu hər dəfə onun Tərtərdəki Yeni Daşkəndlə, -çox-çox uzaqlarda, düsmən tapdağında qalmış, amma o torpağın vətənpərvər oğlu, böyük ictimai-siyasi xadim yazıcı-publisist, şair Hidayətin təbirincə mütləq qayıdacağımız o yurddakı Daşkənd kəndini xatırlayarkən ürək sızıltısı əks olunan gözlərində görmüşəm Həsən müəllimin.

Əziz müəllimim! Sizinlə daim fəxr etmişəm, bütün sahələrdə Sizə oxşamağa calışmışam. Sizə dönə-dönə

hər zaman cansağlığı diləyərdim, Uca Tanrıdan uzun ömür istəyərdim. İndi Sizə - Böyük müəllimimə Allahdan rəhmət diləmək nəsib oldu. Ruhunuz şad olsun, Ustadım. Rahat yat!!! Üzərində tükənməz haqqınız olan Sabiriniz!

**SABİR BAYRAMOV**
***Tibb üzrə fəlsəfə doktoru***



## İLK SƏNƏT MÜƏLLİMİM

İnsan taleləri müxtəlif olur. Bəzi adamlar on illərlə ömür sürüb yaşasalar da, onların adları, əməlləri bir məhəllə, bir kənd, bir şəhər hüdudlarından kənara çıxa bilmir. Adam var ki, onun əməlləri, xeyirxahlığı, böyüklüyü ucsuz-bucaqsız sərhədləri aşaraq özünə, həm xalqına, elinə, obasına şərəf gətirir.

Belə şəxsiyyətlər, belə insanlar bizim üçün nümunədirlər. Gördüyümüz, münasibətdə olduğumuz yaxşı adamlar, gözəl insanlar gözəl nümunəyə çevrilir, tərbiyə məktəbi olurlar. Biz belə insanlara oxşamağa çalışmaqla özümüzü tərbiyə edir, mənəvi yüksəkliyə çan atırıq.

Professor H.Sultanov da belə şəxsiyyətlərdən idi. Sadə və təvazökar olduğu üçün hamı onu sevər və

hörmət edərdi. O, heç vaxt özünü başqalarından üstün tutmaz, uğur və müvəffəqiyyətləri ilə, qazandığı nailiyyətlərlə, göstərdiyi xidmətlərlə öyünməzdi. Əksinə, uğurları artdıqca o, özünü daha sadə aparar, qazandıqlarını az bilər və daha çox nailiyyət əldə etməyə çalışardı. Həsən müəllim hamı ilə mehriban və səmimi rəftar edər, heç kimin xətrinə dəyməz, ən kobud adamlarla belə dil tapardı. O, çox xeyirxah insan idi. Xeyirxahlıq isə təmannasız edilən yaxşılıq, əvəzi güdülmədən göstərilən köməkdir. Bu onu əsil insan kimi tanıdır, ucaldır, şöhrətləndirirdi. Xeyirxahlıq Həsən müəllimin simasında əsil tərbiyə məktəbidir. Biz də bu məktəbin şagirdləri kimi xeyirxah olmalı, bizdən kömək umanlara, dara, çətinə düşənlərə qayğı göstərməli, onların harayına, köməyinə çatmalıyıq.

İnsanın xoşbəxtliyi onun həyatından sonra adının dillərdə hörmət və izzətlə çəkilməsindədir. Əminəm ki, professor H.A. Sultanovun xoş xatirəsi onu sevənlərin qəlbində daim yaşayacaq və hörmətlə anılacaqdır.

**NATƏVAN XIDIROVA**

***I-cərrahi xəstəliklər kafedrasının assistenti, Tibb üzrə fəlsəfə doktoru***



## ŞƏRƏFLİ ÖMÜR YAŞAYAN UCA İNSAN

Öz sadəliyi, peşəkarlığı, insansevərliyi ilə çox uca-da duran Həsən müəllimi 1990-cı ildən İ-ci müalicə-profilaktika fakultəsinin VI kursunda oxuyanda fakultəmizin dekanı kimi tanımışam. Hələ o zamanlar onun tələbələrlə necə gözəl davranması, onların problemlərini həll etməsi məndə xoş təəsüratlar yaratmışdı və bu insana böyük istəyim yaranmışdı. Tale elə gətirdi ki, institutun elmi şurasının qərarı ilə 1991-ci ildə I-cərrahi xəstəliklər kafedrasında baş laborant vəzifəsinə təyin edildim. Həsən müəllim mənim kafedra müəllimim, sonra elmi rəhbərim və sevimli müəllimim–ustadım oldu. Ona olan istəyim və hörmətim hər gün daha da artırdı. Onun xəstələrlə necə davranmasını, müalicə taktikasını, səbrini gördükcə ona oxşamağa çalışırdım.

O mülayim, həlim təbiətli olduğu qədər də tələbkar idi. Bu tələbkarlıq onun alimliyindən, ustalığından və qayğısından irəli gəlirdi. Ona görə də belə tələbkarlığın qarşısındakı ondan incimir, əksinə özünə tənqidi artırırdı. Yaşadığım ömür ərzində Həsən müəllimə oxşayan ikinci bir insanla rastlaşmamışam. Mən fəxr edirəm ki, Həsən müəllimin tələbəsi, yetirməsi və məktəbinin üzvü olmuşam. Bəli, Həsən müəllimin gözəl ailəsi, kollektivi olduğu kimi “Həsən müəllim məktəbi”də vardır. Bu məktəbin uzvlərinin sayı çoxdur. Mən fəxrlə deyə bilərəm ki, bu məktəbin üzvüyəm. Hər dəfə çətin hallarda mən Həsən müəllimin metodlarından istifadə edərkən onun nə qədər böyük alim olduğuna bir daha əmin oluram .

Həsən müəllim mənə həmişə 3-cü qızım deyərdi və mən də onu özümə mənəvi ata hesab edirəm. Mən onun kövrək insan olduğunun şahidi olmuşam. Xəstələrin dərdini öz dərdi hesab edən, işçilərin və ona müraciət edən tələbələrin qayğısını ürəkdən çəkən, yardım etməyə çalışan bu gözəl insan sanki özü üçün yaşamırdı. Ömrünün sonuna kimi iş qayğısı çəkən, daim yazıb –yaratmaq eşqi olan insan nə qədər yüksəklərdə dururdu və bu gündə durur. Tanrı ona ən gözəl keyfiyyətləri vermişdi. Həsən müəllimlə danışmaq, onunla dərdini bölmək, ondan məsləhət almaq necə də asan idi. Çünki o özünü heç vaxt sərt hakim, rəhbər kimi aparmırdı. Qeyri-adi sadəliyi, alicənablığı ona gözəllik verirdi. 1998-ci ildə onun rəhbərliyi altinda namizədlik disertasiyası müdafiə edərkən gözlərinin dolduğunun və ürəkdən sevindiyinin şahidi oldum. Mən onun əlindən opdüm və dedim: ”Həsən müəllim, bu sizin əməyinizdir mən sizə borcluyam. O isə “Yox qızım bu sənin əməyindir“

– dedi. Bu onun yüksək insanı keyfiyyətlərindən irəli gəlirdi. Onunla saatlarla danışıb, söhbət edib, məsləhət almaq olurdu, amma yorulmazdın. 60 ilə qədər xalqımızın sağlamlığının keşiyində durmaq, tibb elminin inkişafında layiqli yer tutan alim, pedaqoq, müəllim ürəyimizdə daim yaşayacaq. Mən Həsən müəllimin ruhunun qarşısında söz verirəm ki, onun davamçısı kimi daim elmi axtarışlarda olub, onun tamamlanmamış işlərinin başa çatmasına çalışacağam. Mənim tamamlanmamış doktorluq işimin elmi məsləhətçisi olması məndə qürur hissi oyadır. Özü cismən olmasa da onun məsləhətləri mənim bütün ömrümə çatar. Koloproktoloq kimi yetişməyim Həsən müəllimin xetir -duası ilə olub. Ona görədə həmişə ondan uğurlar görmüşəm.

Allah sizə rəhmət eləsin, gözəl Alimim!

**SOLMAZ İMANOVA**

***I-cərrahi xəstəliklər kafedrasının dossenti, Tibb üzrə fəlsəfə doktoru***



## ELMİMİZİN AĞSAQQALI

Həsən müəllim, ilk həyat müəllimim haqqında xatirələr yazmaq mənə olduqca çətindir. Çünki, onun ölümünü yaxına buraxmıram, qətiyyətlə qəbul etmirəm. Hesab edirəm ki, o həmişə yanımızdadır və yanımızda olacaq. Çətin anlarımızda, mübahisəli anlarda həmişəki kimi onun yanına qaçacaq, ondan qiymətli məsləhətlər alaçaq, kömək umacağıq. O isə... Həmişə olduğu kimi. Bizi səbrlə dinləyəcək. Düşünəcək. Gülümsəyəcək. Və məsləhətlərini, köməyini əsirgəməyəcək. Həsən müəllim qəlbimizdə həmişə qalacaq, həmişə belə qalacaq. Bu adamın hər sözü, hər hərəkəti, hər jesti tərbiyəvi, öyrədici xarakter daşıyırdı. Kafedramızın formalaşması, inkişafı, təşəkkülü bilavasitə onun unudulmaz adı ilə bağlı idi. Onun nüfuzu o qədər böyük idi

ki, hər bir xahişi, istəyi qısa zamanda yerinə yetirilərdi. Respublikamızın Səhiyyə Nazirliyinin, Universitetimizin rəhbərliyi, adlı-sanlı səhiyyə işçiləri, tanınmış tibb alimləri... ona xüsusi rəğbət bəsləyərdilər. Hər hansı hər hansı tələbə, gənc həkim, hər hansı əməkdaş barədə xahişlərini rəhbərlik həsaslıqla qəbul edərdi. Elə mənim özümün kafedrada qalmağım, müəllim seçilməyim onun istəyinin nəticəsi idi. Namizədlik dissertasiyamın müdafiəsi günü valideynlərimdən də, özümdən də çox sevinən Həsən müəllim idi. Onu təbrik edənləri, ona gül dəstələri bağışlayanları sevinə-sevinə mənə tərəf yönəldirdi: "Sevinc çox əziyyət çəkib, çox zəhmət çəkib. Onu təbrik edin. Təbrik mənə yox, ona düşür" – deyirdi. İndi ona uca Allahdan rəhmət diləmək gəlir əlimizdən. Ruhun şad olsun, Həsən müəllim!!!

**SEVİNC SALAHOVA**

***I-cərrahi xəstəliklər kafedrasının assistenti, Tibb üzrə fəlsəfə doktoru***



## ELMİNİ, HƏKİMLİYİNİ PAYLAŞMAĞI BACARAN İNSAN

Həyatını Azərbaycan Səhiyyəsinə və tibb elminin tərəqqisinə həsr etmiş, ölkəmizdə koloproktologiya elminin əsasını qoyan əsil elm adamını təbrik etməkdən məmnunluq duyuram.

Ata, baba, müəllim, professor, elmlər doktoru. Bu təyinlərin hansını özü daha çox sevirdi, bilmirəm, amma hamısı Həsən müəllimə yaraşırdı.

Həsən müəllim Azərbaycanda sanballı koloproktologiya məktəbini yaradan, bu sahədə onlarla mütəxəssis yetişdirən, ziyalılq anlayışının əhatə etdiyi böyük mənaya cavab verən Şəxsiyyət olmuşdur. O, öz elmini paylaşmağı bacaran bir alimdi, xəzinə idi. Və bu xəzinədən nə qədər öyrənsən bitib-tükənən deyil. Sö-

zün həqiqi mənasında böyük Alim və Müəllimdir. Düşünürəm ki, İnsan həyatında yalnız bir neçə şəxs olur ki, onlara "müəllim" deyərək müraciət edilir. Müəllim isə valideynlərdən sonra müqəddəs sayılan insandır. Həsən müəllim mənim qəlbimdə tək elmi rəhbər deyil, həm də uca Müəllim kimi yer tutmuşdur. Mənə "müəllimim" demək şansını verdiyi üçün ona dərin ehtiramımı və təşəkkürümü bildirirəm. Həsən müəllim elmdə ilk kövrək addımlarımı atmağı, bu yolda rastlaşdığım çətinliklərə sinə gərməyi öyrətdi. Həyatda qazandığım ən kiçik uğurun belə arxasında böyük əməyin və zəhmətin olmasının labüdlüyünü göstərdi. Həyatda qazandığım və gələcəkdə qazanacağım bütün uğurların müəllifi oldu. Sizin ölməz ruhunuz qarşısında mənim üçün cızdığınız elm yolunda daha da irəli gedəcəyimə Sizə söz verirəm. Allah Sizə rəhmət eləsin!

**AYNUR SƏFİYEVA**

***Mərkəzi Gömrük Hospitalının cərrah-proktoloqu, Tibb üzrə fəlsəfə doktoru***



## ÖZÜ GETDİ, İZİ QALDI...

Professor Həsən Sultanov haqqında keçmiş zamanda danışmaq nə qədər ağır olsa da taleyin hökmünə qarşı çıxmağın qeyri-mümkünlüyünü anlayaraq əziz müəllimim haqqında ürək sözlərini yazmağımı özümə borc bildim. Onun müdir olduğu kafedraya işə gələndə etiraf edim ki, respublikamızdan kənarda da böyük şöhrət qazanan bir şəxslə necə münasibət quracağımla bağlı içimdə təzadlı duyğular var idi. O, uca alim, professor, məşhur həkim. Mən isə.... Amma Həsən müəllimin ilk, müraciətindən, ilk sözlərindən sonra hiss etdim ki, qarşımdakı bu üzü nurla dolu şəxsiyyət elm fədailərinin bütün yaxşı keyfiyyətlərini özündə cəmləşdirən, heyrətamiz sadəliyi ilə əlçatmaz aliliyi özündə birləşdirən əsil insandır. Onun mənə müraciətlə

“bəlkə də sən mənim sonuncu dissertantım olacaqsan” kəlmələri məni daxildən kövrəltdi və ona qəlbən bağlandım. Zaman keçdikcə onun daxili təmizliyinə heyran olurdum. Heç yadımdan çıxmaz. Bir neçə il öncə Həsən müəllim ailəsi ilə Şəkiyə istirahətə gəlmişdi. İlk dəfə Şəkiyə gələn müəllimimi evimizə dəvət etdim. Valdeyinlərim bizdə qonaq qalmağına təkid etsələr də professor razı olmadı, qonaq evində qalmağı üstün tutdu. Atam ona şəhərimizin səfalı yerlərindən birində ev tutdu, ödənişi etdi, ev sahibinə tapşırdı ki, Həsən müəllim bizim qənağımızıdır, əsil qonaqpərvərliyimizi göstərin. Mən onları qonaq evinə çatdıranda Həsən müəllim soruşdu: Azər, öyrən gör nə qədər ödəməliyəm? Mən ona: Professor, atama nə cavab verim? Siz bizim qonağımızsınız, -dedikdə, o, çevrilib maşından düşmək istəyən nəvələrinə “Oturun maşında, ödənişi özüm etməsəm, düşməyəcəksiniz” – dedi. Üzünə baxanda professorun ciddiliyinin fərqinə vardım, və onun sözləri ilə razılaşmaqdan başqa yolum qalmadı.

Bu insan yaşadığı müddətdə bir ömürə sığmayan hörmət, öləndən sonra isə tükənməz rəhmət qazandı. Belə bir deyim var: Elə yaşa ki, öldükdən sonra da yaşayasan. O, mənim kimi neçə-neçə tələbəsinin, dostlarının, şəfa verdiyi minlərlə xəstəsinin, onların əzizlrinin qəlbində yaşayır və həmişə yaşayacaqdır. Qəbri nurla dolsun!

**AZƏR HÜMMƏTOV**

***I-cərrahi xəstəliklər kafedrasının baş laborantı, Tibb üzrə fəlsəfə doktoru***



## QÜRUR MƏNBƏYİMİZ

Həsən müəllimi ilk tanıdığımız vaxtlar mən hələ Azərbaycan Tibb Univeristetinin I-müalicə-profilkatika fakultəsinin V kursunda təhsil alırdım.O zaman cərrahi xəstəliklər fənni üzrə dərslərimiz keçmiş M. Nağıyev adına Kliniki Təxirəsalınmaz Tibbi Yardım xəstəxanasının bazasında yerləşən I-cərrahi xəstəliklər kafedrasında keçirilirdi. Müəllimimiz Eldar müəllim bir gün dərsin sonunda fəal tələbələrdən bir neçəsini, o cümlədən məni saxlayaraq tələbə elmi cəmiiyəti çərçivəsində kiçik elmi işlər aparmağı tövsiyə etdi. Önümüzdəki gün biz artıq özümüzü elm adamı kimi hiss edirdik. Bu hisləri daha böyük qürurla keçirirdim. Çünki elmi rəhbərim kafedra müdiri professor Həsən Sultanov idi. Elə həmin illərdən başlayaraq Həsən müəllimin necə qayğıkeş ailə başçisi, kafedra müdiri, gözəl müəllim olmasını kəşf etdim. Belə

bir deyim var: "Müəllim əgər bir ömür boyu özündən sonra davamçı yetişdirmirsə, deməli o ustad deyil". Bəli bunun bariz nümunəsdir ki, bu kafedra Universitetimizin və ölkəmizin həyatında çox önəmli yer tutan böyük alimlər yetişdirmişdir və bu uğurların hamısının ardında Həsən müəllimin şox təvəzörkarcasına atılmış kiçik imzası durur. Sonrakı illərdə onu daha geniş və daha yaxsı analmağa başladım. Tale elə gətirdi ki, I-cərrahi xəstəliklər kafedrasının heyətinin sıralarında yer aldım. Bu illərdə Həsən müəllimin qayğııkeş əlləri həmişə köməyimizə çatdı. Namizədlik dissertasiyası işimin elmi rəhbəri kimi onunla sıx təmasda oldum. Zaman keçdikcə, xüsusilə müdafiə prosesi ərəfəsində elmi rəhbərimin necə gözəl insan, böyük alim olduğunun təkrar-təkrar şahidi olurdum. Qısası, dissertasiya işimlə bağlı hansı qapını döyürdümsə, elmi rəhbərimin professor H.A. Sultanov olduğu bilinən kimi hamının simasında xoş təbəssüm yaranır və böyük ehtiramla tədim etdiyim səndələr imzalanırdı. Hamı bizdən professora salam söyləyərsən deyirdi. Bütün bunlaru profesor Sultanovun illər boyu qazandığı və bizlərə irs kimi qoyduğu yaxşılıqların bariz cavabı idi. Necə deyərler onun əkdiyi ağacların meyvələrini bizlər yeyirdik. Son olaraq fəxrlə deyə bilərəm ki, əməkder elm xadimi, tibb elmləri doktoru, profesor Həsən Sultanovun tələbəsiyəm, ondan çox şeyləri, həyatım və əmək fəaliyyətim üçün gərəkli olanları öyrənmişəm və bununla həmişə qürur duymuşam. Allah müəllimimə, ustadıma rəhmət eləsin! Qəbri nurlu olsun!!!

**TARİYEL ÖMƏROV**

***I-cərrahi xəstəliklər kafedrasının baş laborantı, Tibb üzrə fəlsəfə doktoru***

# O HƏR BİRİMİZƏ ARXA, DAYAQ İDİ...

Həsən müəllim haqqında təəssüratlarımı bölüşmək, onun haqqında xatirə yazmaq heç yaman planlarımda olmayıb, bu barədə düşüncələri indi də yaxınıma buraxmaq istəmirəm. Ancaq taleyin amansız hökmü ilə barışmaq istəməsəm də ürək sözlərimi zorən bölüşmək istəyirəm. Onunla ilk tanışlığımı heç zaman unutmayacağam. klinik ordinaturada təhsilimi davam etdirmək I-cərrahi xəstəliklər kafedrasına üçün göndərilmişdim. Müvafiq əmri Həsən müəllimə təqdim etdim. Həm özü, həm də kafedranın müəllimlərindən məni heç kim tanımırdı. İş kabinetində olan kafedranın əməkdaşları ilə məni tanış etdi. Dosent Sürəddin Zeynalova müraciətlə “Bu oğlanı sənə əmanət edirəm. Gəncdir, ağıllıdır, savadlıdır. Ondan muğayat ol” dedi. Xeyli sonralar, namizədlik dissertasiyasını müdafiə edəndən sonra bir dəfə Həsən müəllimə bu söhbəti xatırlatdım. Və o zaman məni tanımadan necə müsbət xarakterizə etməyinin səbəbini soruşdum. O, sadəcə cavab vermədi, ənənəvi olaraq gülümsəməklə söhbəti tamamladı. Hər birimizin kiçik uğurunu da özününkü hesab edər, uşaq kimi sevinərdi. Olduqca mütərəqqi insan idi, yeniliyə can atardı. Bu kafedraya gələn hər bir kəs mütləq nəsə gətirməlidir. Nuru Bayramovu, Sürəddin Zeynalovu(o vaxtlar kafedranın assistentləri idilər), Tarverdi Zeynalovu ... nümunə göstərərdi: “Faiq (Dosent Qapaqov) kafedramıza, Universitetimizə lazerləri, Nuru qaraciyər transplantasiyasını, Sürəddin laparoskopiya-

nı, Tarverdi ERPXQ-ni gətirib...." Əliboş gələni hec cür qəbul etməz, yaxına buraxmazdı. Amiranə tərzlə "ya nə isə etməlisən, ya da elə indidən şələ-küləni yığışdır, get" – deyərdi. Sonuncu, 80-illik yubileyini heç zaman unutmaram. Tələbələri, yetirmələri ilə qol-boyun oldu, sevindi, kövrəldi... Onları öz övladlarından heç zaman ayırmazdı. Onun yaddaşında sevimli tələbələri elə izlər qoy-muşdular ki, onları həmişə xatırlayar, nümunə göstərər, onlarla qürur duyardı. Etibar adlı çox savadlı və sevimli bir tələbəsi olmuşdu. Hazırda Gəncədə tanınmış cərrahdır. Bəzən kafedranın gənc əməkdaşlarına "Etibar" deyə müraciət edirdi. Uzun illər Etibar həkimi görməsə də onu heç zaman unutmurdu. Həsən müəllim, sadəcə belə idi. Həsən müəllim qəlbimizdə belə qala-caq. Susmağı ilə, sərrast danışığı ilə, arabir mənalı gülümsəmə-yi ilə, nəvaziş dolu, məhəbbət dolu baxışları ilə... Allah sənə rəhmət etsin, əziz müəllimim!!!

**KƏNAN MƏMMƏDOV**
***Tibb üzrə fəlsəfə doktoru***

# ƏMƏKDAR ELM XADİMİ, PROFESSOR HƏSƏN ABBAS OĞLU SULTANOVUN HƏYATININ, ELMİ-PEDAQOJİ VƏ TƏCRÜBİ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

1932-ci il 9 may - Həsən Abbas oğlu Sultanov Tərtər rayonunda anadan olmuşdur.

1939-cu il - Tərtər rayonunun Söylən kənd ibtidai məktəbinin 1-ci sinfinə getmişdir.

1943-cü il - Tərtər rayonunun Evoğlu kənd səkkizillik məktəbində təhsilini davam etdirmiş və 1947-ci ildə 8-ci sinfi bitirmişdir.

1947-ci il - Tərtər şəhər orta məktəbində təhsilini davam etdirmiş və 1949-cu ildə orta məktəbi başa vurmuşdur.

1949-cu il - Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilsktika fakültəsinə qəbul olunmuşdur.

1953-cü il – Samara (Kuybışev) Dövlət Tibb İnstitunun hərbi tibb fakültəsində ali təhsilini davam etdirmişdir.

1955-ci il - Hərbi tibb fakültəsini bitirmiş və Murmansk vilayətinə hərbi həkim kimi təyinat almışdır.

1957-ci il – Ordu sıralarından təxris edilərək Tərtər rayonunun Evoğlu kənd xəstəxanasına baş həkim təyin olunmuşdur.

1960-cı il - Azərbaycan Tibb Universitetinin I-hospital cərrahiyyəsi kafedrasında klinik ordinaturaya daxil olmuşdur.

1963-cü il - Bərdə rayon birləşmiş mərkəzi xəstəxanasının cərrahi şöbəsinə müdir təyin edilmişdir. Sonra baş həkimin müavini, baş həkim vəzifələrində işləmişdir.

1969-cu il – Tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir.

1972-ci il - Azərbaycan Tibb Universitetinin I-hospital cərrahiyyəsi kafedrasına assistent vəzifəsinə seçilmişdir.

1975-ci il – "Azərbaycan Tibb jurnalı"nda son 5 il ərzində əhali arasında proktoloji xəstəliklərin yayılmasına dair geniş elmi məqaləsi işıq üzü görmüşdür.

1976-cı il - "Düz bağırsağın xəstəlikləri və onların profilaktikası" adlı xəstələr üçün metodik vəsait dərc etdirmişdir.

1979-cu il - Subordinator və praktik cərrahlar üçün "Düz bağırsağın cərrahi xəstəlikləri" adlı tədris-metodik vəsaitini çap etdirmişdir.

1980-ci il - Elmi-pedaqoji fəaliyyətinə görə dosent adı verilmişdir. "Qəbizlik və onun müalicəsi" mövzusunda metodik tövsiyələr hazırlamış və nəşr etdirmişdir.

1981-ci il – İrəvanda proktoloqların ümumittifaq konfransında çıxış etmişdir.

1983-cü il – "Rektal güzgü" və "Kəskin paraproktitin təsnifatı və müalicəsi" mövzularında səmərələşdirici təkliflərə görə vəsiqələr almışdır.

1984-cü il - Batumidə Zaqafqaziya cərrahlarının XII qurultayında iştirak və çıxış etmişdir.

1986-ci il - Perm şəhərində doktorluq dissertasiyası müdafiə etmiş, tibb elmləri doktoru alimlik dərəcəsi adını almışdır.

1987-ci il - Azərbaycan Tibb İnstitutunun I-cərrahi xəstəliklər kafedrasına professon vəzifəsinə seçilmişdir.

1987-ciil - "Büzdümün irinləmiş epitelial yollarının cərrahi müalicəsində idarə olunan tikişlər" səmərələşdirici təklifinə görə vəsiqə almışdır.

1988-ci il – Azərbaycan Tibb İnstitutunun I-müalicə-profilaktika fakültəsinin dekanı vəzifəsinə seçilmişdir.

1989-cu il – Kiyev şəhərində proktoloqların ümumittifaq konfransında geniş məruzə ilə çıxış etmişdir.

1989-cu il – "Hemorroy və onun profilaktikası" mövzusunda metodik işləmələri çap etdirmişdir.

1990-cı il – Azərbaycan Tibb Universitetinin I-cərrahi xəstəliklər kafedrasına müdir təyin edilmişdir.

1991-ci il – "Kəskin paraproktit" monoqrafiyası çapdan çıxmışdır.

1991-ci il – Ankarada "Türkiyə-Azərbaycan cərrahı" tibb günlərində iştirak etmiş, böyük məruzə ilə çıxış etmişdir.

1993-cü il - Tibb Universitetinin tələbələri üçün "Cərrahi xəstəliklər" dərsliyini çap etdirmişdir.

1993-cü il – Sankt-Peterburq şəhərində proktologiyanın aktual problemlərinə həsr olunmuş konfransda çıxış etmişdir.

1995-ci il – İstanbulda, elmi konqresdə çıxış etmişdir.

1996-cı il – Moskvada, N.İ. Piroqov adına Cərrahlar Cəmiyyətinin I konqresində məruzə ilə çıxış etmişdir.

1997-ci il – Bakıda, I Avrasiya qastroenteroloqlar və cərrahlar cəmiyyətinin konqresinin təşkilində və işində yaxından iştirak etmişdir.

1997-ci il - Tibb məktəblərinini tələbələri üçün 24 çap vərəqi həcmində "Cərrahi xəstəliklər" dərsliyini nəşr etdirmişdir.

1998-ci il – Onun baş redaktorluğu altında "Qarın boşluğunun təcili və təxirəsalınmaz cərrahi xəstəlikləri" adlı sanballı irihəcmli rəhbərlik nəşr olunmuşdur.

1998-ci il - "Qaraciyərin rezeksiyası zamanı qaraciyər çatışmazlığının proqnozlaşdırma üsulu" səmərələşdirici təklif üçün 337 N-li şəhadətnamə (əməkdaşlarla birlikdə) almışdır.

1999-cu il - Tbilisidə Zaqafqaziya cərrahlarının XII qurultayında iştirak etmişdir.

1999-cu il - Tibb Universitetinin tələbələri üçün irihəcmli "Cərrahi xəstəliklər" dərsliyi dərc edildi.

2001-ci il - Səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

2002-ci il – Alimin 70-illik yubileyinə həsr olunmuş beynəlxalq səviyyəli elmi-təcrübi konfrans keçirildi. Konfransın materialları nəfis şəkildə dərc olundu. 2003-cü il - Professor Z.M. Məmmədovun 100 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransın, Azərbaycan mama-ginekoloqlarının III qurultayı, Professor B.X.Abasovun 80-illik yubileyinə həsr olunmuş elmi-təcrübi konfransın və VI Beynəlxalq Avrasiya və Azərbaycan qastroenteroloq və cərrahların konqresində sanballı məruzələrlə çıxış etdi. 2005-ci il - "Düz və yoğun bağırsaq operasiyalarının atlası" (E.A. Əliyevlə birgə) dərsliyi içıq üzü gördü.

2009-cu il – MDB koloproktoloqlarının I qurultayının işində iştirak etdi. 2010-cu il - Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

2010-cu il - Azərbaycan Tibb Universitetinin 80-illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfransın işində fəal iştirak etdi. 2011-ci il – "Koloproktologiya" dərsliyi çapdan çıxdı.

2012-ci il – Alimin 80-illik yubileyinə həsr olunmuş beynəlxalq səviyyəli elmi-təcrübi konfrans keçirildi. Konfransın materialları nəfis şəkildə dərc olundu.

2013-cü il- XIII Beynəlxalq Avrasiya Cərrahiyyə və Qastroenterologiya konqresində fəal iştirak etdi.

2014-cü il - əməkdar elm xadimi, "Şöhrət" ordenli, tibb elmləri doktoru, professor H.A. Sultanov uzun sürən ağır xəstəlikdən sonra vəfat etdi.

# ƏMƏKDAR ELM XADİMİ, PROFESSOR H.A. SULTANOVUN RƏHBƏRLİYİ ALTINDA MÜDAFİƏ EDİLMİŞ DİSSERTASİYALAR

## DOKTORLUQ DİSSERTASİYALARI

**1. S.M. Zeynalov:** "Qarın boşluuğu orqanlarının kəskin cərrahi xəstəliklərinin diaqnostikasında termovizorun yeri". Tibb elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya. Moskva. 1996

**2. N.Y.Bayramov:** "Qaraciyərin rezeksiyasından sonrakı ağırlaşmaların proqnozlaşdırılması və profilaktikası". Tibb elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 1998

**3. S.R. Musayeva:** "Yeni kompüter texnologiyalarının cərrahlıqda tətbiqi" Tibb elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya. Moskva. 1999

**4. M.O. Məsimov:** "Ətrafların ağır odlu silah travmaları zamanı rekonstruktiv-bərpaedici əməliyyatlar, irinli ağırlaşmaların və fəsadların profilaktikası və müalicəsində cərrahi taktika". Tibb elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 2005

**5. S.A. Əliyev:** "Çənbər bağırsağın şiş mənşəli obturasion keçməzliyinin cərrahi müalicəsinin nəticələrinin yaxşılaşdırılması yolları". Tibb elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 2011

**6. E.A.Əliyev:** "Anal sfinkteri çatmazlığının cərrahi müalicəsinin nəticələrinin yaxşılaşdırılması yolları". Bakı. 2015.

## FƏLSƏFƏ DOKTORLUĞU DİSSERTASİYALARI

**7. S.A. Bayramov:** "Rayon mərkəzi xəstəxanası şəraitində proktoloji xəstəliklərin cərrahi müalicəsi". Tibb

elmləri namizədi alimlik dərəcəsini almaq üçün dissertasiya. Bakı. 1992

**8. T. Kərimova:** "Yayılmış irinli peritonitlərin intensiv müalicəsində qanın damardaxili lazer şüalandırılmasının və hemosorbsiyasının klinik effektliyi". Tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 1993

**9. S.R.Musayeva:** "İrinli yaraların müalicəsində immobilizasiya olunmuş proteoliz fermentləri kolitinin və lizosimin müqayisəli qiymətləndirilməsi". Tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 1994

**10. Ə.M. Rüstəm:** "Qarın boşluğu orqanlarının kəskin cərrahi xəstəliklərinin kompyüter diaqnostikası". Tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 1995

**11. E.A.Əliyev:** "Kəskin xolesistitin kompleks müalicəsində lazer şüalarının müştərək tətbiqi". Tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 1995

**12. Q.B. İskəndərov:** "Kəskin paraproktitin cərrahi müalicəsi". Tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 1998

**13. S.S. İmanova:** "Hamilə qadınlarda babasilin profilaktikası və müalicəsi". Tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 1998

**14. B.M. Zeynalov:** "Yoğun bağırsaq anastomozlarının çatışmazlığının profilaktikası və proqnozlaşdırılması". Tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 1998

**15. E.A. Həsənova:** "Proktoloji xəstələrdə aparılan epidural anesteziyada klofelin komponent kimi". Tibb

elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 1998

**16. N.M. Aşırova:** "Xora mənşəli qastroduodenal qanaxmaların müalicəsində endoskopik metodların tətbiqi". Tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiyaş Bakı. 1999

**17. T.M. Rzayev:** "Qaraciyərin maye şırnağı ilə rezeksiyasının nəticələrinin yaxşılaşdırılması". Tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 1999

**18. S.Y. Əsgərova:** "Mədə və onikibarmaq bağırsağın qanaxma verən xoralarının rayon şəraitində müalicəsinin təşkilinin prinsioləri". Tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 1998

**19. X.A.Mustafayev:** "Mürəkkəb pararektal fistulların cərrahi müalicəsinin nəticələrinin yaxşılaşdırılması". Tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 2000

**20. Ə.M. Əhmədov:** "Kəskin bağırsaq keçməzliyinin cərrahi müalicəsində qanın damardaxili lazer şüalandırılması və plazmaferezin klinik effektliyi". Tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 2001

**21. M.A.Əfəndiyev:** "Peritonit zamanı qanın ekstrakorporal oksigenasiyası müalicəmetodu kimi". Tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 2004

**22. N.A. Zeynalov:** "Qaraciyərin exinokokkozunun laparoskopik müalicəsinin nəticələrinin yaxşılaşdırılması".Tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 2005

**23. E.M. Nəsibova:** "Proktoloji xəstələrdə sakral anesteziya zamanı lidokainlə birgə narkotik analgetiklərin

təsirinin müqayisəli analizi". Tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 2005

**24. Ə.A. Yusifov:** "Qarının parenximatoz üzvlərinin və kəllə-beyinin ağır müştərək travmalarının diaqnostikası və müalicəsi". Tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 2007

**25. E.H.Əzimov:** "Yoğun bağırsaq operasiyalarında anastomoz tikişlərinin tutmazlığının profilaktikasında antioksidantların tətbiqi". Tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 2007

**26. K.A.Mirzəyeva:** "Babasil xəstəliyinin ağırlaşmış formalarında qaraciyərin funksiyasında gedən dəyişikliklər". Tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 2008

**27. K.M. Məmmədov:** "Döş və qarın boşluqlarının müştərək travmalarının videoendoskopik diaqnostikası və müalicəsi". Tibb elmləri üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 2009

**28. M.G. Mahmudov:** "Helicobacter Pylori ilə assosiasiya olunmuş perforativ mədə xoralarının kompleks müalicəsində azenerjili lazer şüalarının tətbiqi". Tibb elmləri üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı.2009

**29. B.N. Hüseynov:** "Qarın yatalağı mənşəli xoraların perforasiyasının cərrahi müalicəsinin müasir aspektləri". Tibb elmləri üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı.2009

**30. A.F. Hümmətov:** "Residiv mürəkkəb pararektal fistulların diaqnostikası və cərrahi müalicəsinin nəticələrinin yaxşılaşdırılması". Tibb elmləri üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 2010

**31. S.Ş.Salahova:** "Atipik və ağırlaşmış appendisitlərdə laparoskopik appendektomiya". Tibb elmləri üzrə

fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 2010

**32. A.Ş.Qasımov:** "Peritonitin müxtəlif fazalarında qarın boşluğunda aparılan sanasiyadan asılı olaraq endotoksikozun vəziyyəti".Tibb elmləri üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 2011

**33. K.Ə. Hacıyev:** "Qaraciyər sirrozunun portal hipertenziya ilə fəsadlaşması zamanı qanaxmanın proqnozlaşdırılması, profilaktikası və müalicə taktikası". Tibb elmləri üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı.2012

**34. A.K.Səfiyeva:** "Mürəkkəb pararektal fistulların müalicəsi". Tibb elmləri üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı.2012

**35. T.Q.Əliyev:** Yoğun bağırsağın geniş rezeksiyasında qalça bağırsaqla autotransplantasiyanın nəticələri. Tibb elmləri üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı 2013

**36. T.İ.Ömərov:** Kəskin pankreatitlər zamanı hemostaz sistemi göstəricilərinin dəyişmə monitorinqi və onun korreksiya yolları. Tibb elmləri üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya Bakı – 2014

**37. T.C.Əmirov:** Mürəkkəb pararektal fistulların cərrahi müalicəsindən sonrakı tibbi reabilitasiya. Tibb elmləri üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı – 2015

**38. P.R.Aydınova:** Pararektal fistulların cərrahi müalicəsinə müasir yanaşma. Tibb elmləri üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı, 2017



# PROFESSOR H.A.SULTANOVUN ELMİ ƏSƏRLƏRİ

## DİSSERTASİYA İŞLƏRİ

1. Опыт раннего выявления и лечения начальной стадии облитерирующего эндартериита среди сельского населения (по данным массового обследования хлопкоробов Бардинского района Азерб. ССР). /Автореферат диссертации на соискание ученой степени канд. мед. наук. Баку. 1968

2. Профилактика и хирургическое лечение острого парапроктита у жителей сельских районов (с учетом краевых особенностей южных регионов) / Автореферат диссертации на соискание ученой степени доктора мед. наук. Пермь. 1986

## MONOQRAFİYALAR VƏ DƏRSLİKLƏR

3. Хирургические заболевания прямой кишки (Учебное пособие). Баку. 1979

4. Острый парапроктит. Баку. Азернешр. 1991. -124 с.

5. Практические навыки по терапии и хирургии /Учебно-методическое пособие. Баку. АзГосМединститут. 1991. 7 печат. лист

6. Cərrahi xəstəliklər. Maarif. Bakı.1993. 34 çap vərəqi

7. Проктология /Учебное пособие. Баку. 1994. 8,5 печат. лист. Р.И. Мехтиев, С.Р. Мусаева

8. Cərrahiyyə. Tibb məktəbləri üçün dərslik. Bakı. 1997. 24 çap vərəqi

9. Qarın boşuğunun kəskin cərrahi xəstəliklərinin təcili və təxirəsalınmaz cərrahlığı. Professor H.A.Sultanovun ümumi redaktorluğu ilə. Rəhbərlik. Bakı. 1998. 24 çap vərəqi

10. Хирурги Азербайджана. Краткий очерк становления и развития научно-практической хирургии в Азербайджане. Баку. 2000. -180 с.

11. Babasil. Bakı. 2001. S.S. İmanova

12. Düz və yoğun bağırsaq operasiyalarının atlası. Dərslik. Bakı. 2005. -298 s. E.A. Əliyev

13. Koloproktologiya. Bakı. «Təbib» nəşriyyatı. 2011. -430 s. E.A. Əliyev, S.H. Sultanova

## SƏMƏRƏLƏŞDİRİCİ TƏKLİFLƏR VƏ İXTİRALAR

14. Ректальное зеркало. Удост.на рац.предложение № 60. Выдан АМИ им. Н. Нариманова. 12.09.1983

15. Классификация и способ лечения острого парапроктита. Удост. на рац. предложение № 67. Выдан АМИ им. Н. Нариманова. 13.09.1983

16. Управляемый шов при операции нагноившегося эпителиального копчивого хода. Удост. на рацпредложение № 173. Выдан АМИ им. Н. Нариманова. 17.02.1987, Н.Ю. Байрамов

17. Способ прогнозирования печеночной недостаточности при резекции печени. Удост. на рац. предложение N 337, Выдан АМУ 21.01.98, Н.Ю. Байрамов, А.М. Рустамов, Т.М. Рзаев

18. Метод резекции печени. Удост. на рацпредложение N 336. Выдан АМУ 21.01.98, Т.М.Рзаев, Н.Ю.Байрамов, А.М. Рустамов

19. Donmaların müalicə üsulu. Müəlliflik şəhadətnaməsi. Patent № 0041. 30.01.2001. S.M. Həmzəyev, N.Y. Bayramov, F.M. Qapaqov, E.A. Əliyev

